Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

1 noyabr 2024-cü il, cümə
№ 202 (6788)
Qiyməti 60 qəpik




# Qlobal hədəf - karbon emissiyasının azaldılması...

## İlham Əliyev yeni nəsil metro qatarları və Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub

Bax səh. 2

# Zəfər ayının 1-ci günü...

Bax səh. 3

## Qardaş ölkənin iqtisadi humanizmi

Türkiyə Nazirlər Kabineti ölkənin gömrük tarifləri ilə bağlı yeni qaydalar müəyyən edib və qərara əsasən, Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olmayan bütün ölkələrdən idxal olunan bəzi sənaye mallarına əlavə əlavə rüsumlarının tutulması nəzərdə tutulur. Bu, ölkədə milli sənayenin inkişafına təkan vermək və yerli sənayeçilərin rəqabət imkanlarını artırmaq məqsədi daşıyır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsünə əsasən, Azərbaycan həmin ölkələr qrupuna daxil edilməyib və Türkiyə hökumətinin qərarına əsasən, ölkəmizdən idxal edilən həmin məhsullar üçün əlavə gömrük rüsumlarının tutulması nəzərdə tutulmur. Bu qərar iki qardaş ölkə arasında iqtisadi münasibətlərin müasir keyfiyyətini göstərməklə, qarşılıqlı iqtisadi güzəşt tədbirləri kursuna xidmət edir.

**"Preferensial Ticarət Sazişi" gömrük rüsumlarını azaltmaqdadır**

Türkiyə hökuməti Azərbaycanla iqtisadi əlaqələrin yeni inkişaf xəttinə uyğun olaraq, gömrük, ticarət, vergi və digər sahələrdə yumşaldıcı və təşviqedici, habelə optimallaşdırıcı siyasət yürütməyə qərar verib və son 2 ildə bu istiqamətdə ardıcıl qərarlar qəbul edilməkdədir. Eyni zamanda, Azərbaycan tərəfindən qardaş ölkənin milli iqtisadi maraqlarına və mənafeyinə xidmət edən davamlı iqtisadi siyasət yürüdülməkdədir. Ümumiyyətlə, iki qardaş ölkə iqtisadiyyatlarını inkişaf etdirmək üçün son illərdə qarşılıqlı xarici investisiyaların həcminin artırılması, iqtisadi-ticari dövriyyənin yüksəldilməsi, biznes icmaları arasında daha çox layihələrin icrası və işgüzar münasibətlərin səmərəliliyinin təmin edilməsi istiqamətində iradəli addımlar atmaqdadır. 2022-ci ildə qarşılıqlı olaraq qüvvəyə minən "Preferensial Ticarət Sazişi" mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, qeyri-tarif maneələrinin aradan qaldırılması, ticarətin genişləndirilməsi və təşviqi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması üçün hüquqi əsaslar formalaşdırıb. Nəticədə ötən 2 ildə idxal və ixrac olunan bir sıra kənd təsərrüfatı və yeyinti məhsullarının idxalına tətbiq edilən gömrük rüsumları qarşılıqlı olaraq azaldılıb.

2023-2024-cü illərdə hər iki ölkə tərəfindən yeni iqtisadi güzəşt və optimallaşma tədbirləri həyata keçirilib ki, onların sırasında Preferensial Ticarət Sazişinin güzəştləri müəyyən edən çərçivəsinin genişləndirilməsi mühüm yer tutur. Bu çərçivəyə əsasən, gömrük rüsumlarının azaldıldığı malların sayı və çeşidi genişləndirilib.

Növbəti mərhələdə Preferensial sazişdə nəzərdə tutulan güzəştli mal qrupunin siyahısının daha da artırılması və rüsumsuz məhsulların çeşidinin 30-dan 50-yə qaldırılması gözlənilir ki, bu iqtisadi dövriyyənin daha da yüksəlməsini...

Bax səh. 3



## Sülh yaxındadır!

Bax səh. 3

## COP29, ədəbiyyat və...

### Günəşi içənlərin türküsü

Bax səh. 4

## Regionda Aİ missiyasına kimin ehtiyacı var?

Bax səh. 6

## Avropa qapılarını "bağlayır"

Bax səh. 6

## Cəbrayıl "yaşıl enerji" rayonuna çevrilir

Baş nazir Əli Əsədov Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında qərar imzalayıb. Sənədə əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi qoyuluş gücü ilkin mərhələdə 50 MVt olmaqla, ümumilikdə, 100 MVt gücündə olan Günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib. Bununla da, rayonda günəş elektrik stansiyasının tikintisi üçün ayrılan torpaq sahəsi 1169 hektara çatıb.

Hökumətin bu qərarı azad ərazilərin zəngin "yaşıl enerji" ünvanlarından biri kimi Cəbrayılda bərpa olunan enerji layihələrinə yerli və xarici investorların axını üçün münbit şəraitin yaradılmasına xidmət edir. Adıçəkilən rayonda təməlləri qoyulmuş alternativ enerji infrastrukturlarının qurulmasında dövlətin dəstəyini və təşviqedici niyyətini əks etdirməklə, bərpa olunan enerji sektoruna əlavə stimullar verilməsini nəzərdə tutur.

**"Xudafərin" və "Qız Qalası" - "yaşıl hidrogen"in əsas sütunları...**

Qeyd edək ki, Cəbrayıl rayonunun aid olduğu Şərqi Zəngəzur bölgəsi külək, Günəş, su, bioresurslar və termal su mənbələri baxımından nəhəng enerji potensialına malikdir. Ortamüddətli inkişaf konsepsiyasına əsasən, bu ərazilər "Yaşıl Enerji Zonası" elan edilib və Yaponiyanın "TEPSCO" şirkəti tərəfindən müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Həmin modelə əsasən, "Yaşıl Enerji Zonası"nda enerji istehsalı üçün bir neçə dayanıqlı mənbə müəyyən edilib. Qarabağ və Şərqi-Zəngəzurda azad ərazilərin hidroenerji, külək və Günəş enerjisi, termal su mənbələrinin həcmi ölkə üzrə resursların təxminən 30-40 faizini təşkil etdiyi müəyyənləşib. İlkin qiymətləndirmələrə görə, azad olunmuş ərazilərinin 7200 meqavat Günəş enerjisi və 2000 meqavat külək enerjisi potensialı var. Təkcə, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur.

Bu bölgədə bərpa olunan enerji resurslarının əsas mənbələrindən biri kimi Cəbrayıl rayonunun coğrafi-relyef və ərazi xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Cəbrayıl və Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kv.metr üfüqi səthə düşən Günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Həmin ərazilərin ümumi günəş enerjisi potensialı...

Bax səh. 5



## Makronun yeni antirekordu

Bax səh. 7



## Uzaq Şərqdə sükut pozulur

Bax səh. 7

# 8 noyabradək daha 2 qatar xəttə buraxılacaq

## İlham Əliyev Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qa-



tarları ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına qatarlar barədə məlumat verdilər.

Bildirildi ki, "Qlobalnıye Transportnıye Reşeniya" MMC ilə "Bakı Metropoliteni" QSC arasında bağlanmış müqaviləyə əsasən, 2024-2026-cı illər ərzində 65 yeni vaqonun (13 qatar tərkibi) istehsal edilərək Bakı metropolitenınə gətirilməsi nəzərdə tutulub. Həmin müqaviləyə uyğun olaraq, 2024-cü ildə 35 (7 qatar tərkibi), 2025-ci ildə 20 (4 qatar tərkibi), 2026-cı ildə isə 10 vaqon (2 qatar tərkibi) istehsal edilməlidir.

Diqqətə çatdırıldı ki, "81-765 B/766 B" seriyalı qatar tərkibi innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Vaqonlar "Bakı Metropoliteni" QSC-nin texniki şərtlərinə uyğun istehsal olunub və yığılaraq komplektləşdirilməsi Bakı metropolitenində təşkil edilir. Vaqonların yığılması prosesi digər metropolitenlər üçün nəzərdə tutulmuş standart layihə əsasında deyil, Avropanın ən yüksək texnoloji tələblərə cavab verən aparıcı istehsalçılarının avadanlıq və sistemləri ilə aparılır. Bakı metropoliteninin mürəkkəb relyefi, texniki xüsusiyyətləri, paytaxtın iqlimi, geoloji şəraiti nəzərə alınmaqla avadanlıqların istismar müddətində yüksək təhlükəsizlik tələblərinə cavab verməsinə, etibarlılığına, uzunömürlülüyünə, istehsal zəmanətinə, səmərəliliyinə və digər üstünlüklərinə diqqət yetirilib. Bu xüsusda, Avropa istehsalçıları ilə 9 müqavilə imzalanaraq avadanlıqların birbaşa Bakıya gətirilməsi təmin edilib. Nəticədə, vaqonların yüksək keyfiyyət standartları təmin edilməklə yığılmasının Bakıda tamamlanaraq xəttə buraxılması nəzərdə tutulub.

Vaqonların Bakıda yığılaraq komplektl?şdirilməsi, sazlama, həmçinin sınaq işl?rinin aparılması məqsədilə Bakı metropoliteninə istehsalçı şirkətin 54 nəfərdən ibarət heyəti ezam edilib. Yeni nəsil qatarların hər birinin baş vaqonları 315, orta vaqonları 329 sərnişin üçün hesablanıb. Baş vaqonlarda 38, orta vaqonlarda 44 oturacaq var. Vaqonların qapıları 1400 mm olmaqla əvvəlki nəsil vaqonlarla müqayisədə 12 faiz daha genişdir. Qatarlarda əlil arabaları, iri yüklər və uşaq arabaları üçün çoxfunksiyalı zonalar, mikroiqlim nəzarəti, videomüşahidə, interaktiv sərnişin məlumatlandırma sistemləri, mobil cihazlar üçün USB portlar, orijinal işıq qrafikası mövcuddur. Vaqonlar hermetik olduğuna görə səs-küysüzdür və istilik izolyasiyasına malikdir. əvvəlki nəsil qatarlarla müqayisədə vaqondan-vaqona birbaşa keçidlər sərnişinlərin qatar boyunca hərəkətini təmin edir. Bakıya gətirilmiş 7 qatardan 5-nin yığılaraq komplektləşdirilməsi, sazlanması və sınaq işləri başa çatdırılıb. Daha 2 qatarın xəttə buraxılması noyabrın 8-nə qədər təmin



ediləcək.

Dövlətimizin başçısı Bakıda komplektləşdirilən qatarların vaqonlarına baxdı.

Qeyd edildi ki, yeni qatarlar nəzərə alınmaqla, Bakı metropoliteninin vaqon parkında innovasiyalar baxımından sonuncu nəslə mənsub vaqonların ümumi sayı 150-yə çatdırılıb.

# Qlobal hədəf - karbon emissiyasının azaldılması...

## İlham Əliyev Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına burada



Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı avtobus və "TX5" markalı elektrik mühərrikli taksi nəqliyyat vasitələri təqdim edilib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Zığ Elektrik Avtobus Parkının ümumi ərazisi 5,4 hektardır. Tutumu 210 elektrik avtobusu olan parkın ərazisində 60 şarj stansiyası mövcuddur.

Hazırda avtobus parkı Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı 160 avtobusdan ibarətdir.

Dövlətimizin başçısına avtobusların texniki göstəriciləri barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, 2024-cü il istehsalı olan avtobusların istismar müddəti 15 il, sərnişin tutumu 83 nəfərdir. Nəqliyyat vasitəsinin uzunluğu 12 metrdən bir qədər çox, eni 2 metr yarım, hündürlüyü isə 3 metrdən artıqdır.

Avtobusların fəaliyyətini təmin edəcək 100 şarj cihazı "Luobinsen" şirkətinin istehsalıdır. Cihazların yükləyici gücü 320kW təşkil edir. Şarj cihazları həddindən artıq gərginlik, cərəyan, faza itkisi və digər çoxsaylı mühafizə funksiyalarına malikdir. Cihazlar şəhərin müxtəlif istiqamətlərində yerləşdiriləcək.

Eyni zamanda, diqqətə çatdırıldı ki, elektrik mühərrikli "LEVC TX5" markalı plug-in hibrid taksilər İngiltərə növü olub Çin istehsalıdır. "Avro-6" standartlarına uyğun həmin avtomobillərin enerji doldurma müddəti 30 dəqiqədir. Yalnız elektrik mühərriki ilə 130 kilometr, qoşulmuş benzin generator ilə isə 600 kilometr məsafə qət etmək imkanına malikdir. Avtomobil, həmçinin təcili əyləc, təkərlərin təzyiqinə nəzarət təchizatı, yol nişanlarını tanıma kimi müasir təhlükəsizlik sistemləri ilə təchiz olunub.

Avtobus parkında, həmçinin təmir mərkəzi, inzibati bina, transformator məntəqəsi, xidmət və texniki sahələr fəaliyyət göstərəcək. Marşrutların Monitorinq Mərkəzi isə avtobusların hərəkət marşrutlarını, qrafiklərini və sərnişin təhlükəsizliyini səmərəli şəkildə izləmək və idarə etmək üçündür. Burada gün ərzində 3 növbədə 24 saat xidmətin təşkil edilməsi və 83 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Qeyd edək ki, hazırda karbon emissiyasının azaldılması qlobal hədəfə çevrilib. Azərbaycan da bu hədəfə çatmaq üçün prioritetlər müəyyənləş-



dirib. Yaşıl texnologiyalardan istifadə bu istiqamətdə atılan addımlardandır. "Eko bus" layihəsi isə "yaşıl texnologiyalar"dan istifadənin genişləndirilməsi məqsədi daşıyır.

# Ölkələrimizin beynəlxalq səviyyədə bir-birini həmişə dəstəkləyir

## Albaniyanın yeni səfiri Azərbaycan Prezidentinin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Albaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Besart Kadianın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycan və Albaniya prezidentlərinin qarşılıqlı səfərlərinin və Albaniyanın Baş nazirinin ölkəmizə səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Azərbaycan Prezidenti Albaniyanın Baş nazirinin bir neçə gündən sonra COP29-da iştirak edəcəyini də vurğulayaraq, bütün bunların ölkələrimiz arasında yaxın tərəfdaşlıq əlaqələrini nümayiş etdirdiyini dedi. Ölkələrimizin beynəlxalq səviyyədə bir-birini həmişə dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın təmsil olunmadığı beynəlxalq təşkilatlarda Albaniya hökumətinin mövqeyimizi dəstəkləməsini yüksək qiymətləndirdi.

Səfir Albaniyanın Baş naziri Edi Ramanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Albaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.



Besart Kadia Azərbaycanda səfir kimi fəaliyyətə başlamaqdan məmnunluğunu bildirərək, ölkələrimiz və xalqlarımız arasında dostluğun və mədəni əlaqələrin önəminə toxundu.

Diplomat Albaniyanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyini bir daha ifadə etdi.

COP29 tədbirinin əhəmiyyətini vurğulayan səfir bu cür genişmiqyaslı tədbirlə bağlı Azərbaycanda həyata keçirilən hazırlıq işlərinin dərin təəssürat hissi yaratdığını dedi.

Söhbət zamanı iqtisadi əməkdaşlığımızın enerji, nəqliyyat, ticarət, turizm və digər sahələri əhatə etməsindən məmnunluq ifadə olundu, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlıq bildirildi.

# İkitərəfli münasibətlərimizə müxtəlif istiqamətlərdə yeni təkan verilməsi zəruridir

## İlham Əliyev Konqo Demokratik Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Konqo Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İvan Vanqu Nqimbinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizə müxtəlif istiqamətlərdə yeni təkan verilməsinin zəruriliyini qeyd edərək, siyasi əlaqələrin yaxşı səviyyəyə çatdığını, ticarət və iqtisadi sahələrdə isə görüləsi çox işlərin olduğunu dedi.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar, ilk növbədə, BMT və Qoşulmama Hərəkatı çərçivəsində bu günə qədər ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı və bunun gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Səfir, ilk növbədə, Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekedinin salamlarını və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi ilə bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Konqo dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir Azərbaycan ilə Konqo arasında təhsil, bank, maliyyə, mədənçilik, təhlükəsizlik sektorlarında və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Konqo Demokratik Respublikasının Prezidentinin bu tədbirdə iştirak edəcəyini vurğuladı.

Prezident İlham Əliyev Konqo Prezidentinin COP29 tədbirində iştirak edəcəyindən məmnunluğunu bildirdi.

# Əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var

## İlham Əliyev Banqladeşin yeni səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanul Haqın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Banqladeş arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, siyasi əlaqələrimizin, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, investisiya və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini qeyd etdi.

Səfir Banqladeş Xalq Respublikasının Prezidenti Məhəmməd Şahabuddinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Banqladeş dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı əvvəllər Banqladeş Prezidenti ilə təmaslarını xatırlayaraq Məhəmməd Şahabuddinin



COP29-da iştirak edəcəyini məmnunluqla vurğuladı, ona fəaliyyətində uğurlar arzuladı.

Amanul Haq ikitərəfli münasibətlərlə bağlı xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

COP29-un əhəmiyyətinə toxunan səfir bu tədbirdə Prezident səviyyəsində təmsil olunacaqlarından məmnunluqlarını bildirdi.

# Ruanda Azərbaycan ilə əlaqələrə böyük önəm verir

## Prezident İlham Əliyev Ruandanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çarlz Kayonqanın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin, ticarət, investisiya, insanlar arasında əlaqələr və digər sahələrdə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin önəminə toxundu.

Prezident İlham Əliyev BMT, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

COP29-da Ruanda Prezidentinin iştirak edəcəyindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu tədbirin önəminə toxundu, onun iqlim dəyişmələri ilə bağlı qlobal səviyyədə müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğuladı və Azərbaycanın bu sahədə fəal iştirak etdiyini dedi.

Çarlz Kayonqa Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, ölkəsinin Prezidenti COP29-da iştirakını səbirsizliklə gözləyir. Səfir vurğuladı ki, Ruanda Prezidenti ona Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini deyib və ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxma-



yaraq, əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Ruanda dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərə dair söylədiyi fikirlərə görə minnətdarlığını bildirən səfir əlaqələrimizin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, humanitar, elm və təhsil sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# COP29, ədəbiyyat və...

## Günəşi içənlərin türküsü

İnsan dağıdanda iblisə, yaradanda Tanrıya bənzəyir... Ədəbiyyat da, sənət də min illərdir bunu deyir.

Axı sənət insanın dünya, zaman, Tanrı və təbiətlə bağlı düşüncəsinin sınırlarının böyütməsi üçün üz tutduğu müqəddəs mehrabdır. İnsan pisliklərdən, yaramazlıqlardan sığortalanmayıb, o, əzabların pandora qutusudur, ədəbiyyatsa həmişə əzabları yenməsində ona yol göstərən olub. Sovet sistemi dağılandan sonra biz bu fikri də tarixin qalıqları altından çıxarıb ona özgə məzmun, mündəricə verməyə çalışdıq: Ədəbiyyat xeyrə xidmət eləmir, onun belə bir öhdəliyi yoxdur! O zaman ədəbiyyat nəyə xidmət edir? Hansı amala, hansı məfkurəyə, hansı düşüncəyə? Əgər çağın insanı onu gündəlik sarmış olan hər cür mənəvi-ruhsal deqradasiyadan, psixoloji anomaliyalardan qurtuluş üçün Ədəbiyyata sığınmayacaqsa, orda öz hüzurunu tapa bilməyəcəksə, o zaman bədii sənətin qayəsi hardan başlanıb harda bitir? Əgər durmadan artan kitablar, yazılan əsərlər sonucda insana yönəlik söz deməyə hasilə gəlmirsə, o zaman bəşəriyyət niyə hər zamanın qəhrəmanını yaratmağa çalışır, onunla öz dilində, düşüncəsində danışmağa çaba göstərir?!.

Bəli, insan darıxır. Bu darıxmanın səbəbini Sokrat Tanrıdan ayrı düşməkdə görürdü. Sokrata görə, ruh Tanrıdan ayrılmazdan öncə çox rahat imiş, heç bir ehtiyacı yoxmuş. Ona görədir ki, insanlar bu dünyada özləri üçün bir rahatlıq dairəsi yaradırlar və bu dairə müvəqqəti də olsa, Tanrı dərgahını əvəz edir. İnsanın öz evi üçün darıxmasının səbəbi də elə budur. Qədim romalılar deyirdilər ki, "Ayın altında yeni heç nə yoxdur" və ya "Hər bir yeni - yaxşıca unudulmuş köhnədir". Bir anlıq düşünək ki, bəlkə dünya da darıxır. O, müharibələrdən bezib, qan, göz yaşı, ölümlər, qətliamlar bəşəriyyətin gücünü tükədib. Onun özünü yeniləməsinə, yeni güc mənbəyinə çevrilməsinə ehtiyacı var.

"Yazalım, özümüzü öyməyəlim...", - deyirdi Mikayıl Müşfiq. Bəlkə öyəlim?! Buna daha çox haqqımız çatır axı. COP-29 yaxınlaşır. Sülh və həmrəylik konfransı! Yaşıl dünya naminə birlik yaradan, dünyaya daha əlvan rənglərdən boylanmağa can atan, gözəllik yaradan uğur hekayəmiz! Bəşəriyyətin məhvi üçün yox, xilası üçün düşünülmüş çağırış himnimiz!

***

Fransız rəssam Matissin çəkdiyi günəşli rəsmləri nəzərdə tutan Lui Araqon ikinci dünya müharibəsi illərini xatırlayıb deyirdi ki, "O ağır illərdə Matiss bizə kömək etdi və biz günəşi qoruyub saxlaya bildik". Sənət xilasdır, yeganə mənəvi sığınacaqdır, bütün hallarda tutunub ruhunu qorumaq, öz yaradıcı kimliyinin çevrəsində qalmaq üçün dirənişdir. İnsanın sənətdən qaynayan, ondan qaynaqlanan bir udum ümid işığı var. O işıq özünü sözlə təsəlli edənləri qoruyan tək silahdır. Bəs ədəbiyyatla, sənətlə məşğul olmayanlar mənəvi impulsu hardan alırlar görəsən? Texnologiyanın vizual ünsiyyəti, ruhsal başlanğıcı sıxışdırıb bir küncə atdığı indiki zamanda bu sual daha çox düşündürür adamı. Bəlkə bu üzdən son vaxtlar elmlə ədəbiyyatın qarşılaşması, müxtəlif axtarış sahələrinin bir-birinə təsiri, konvergensiyası zərurəti çoxalıb?

Elmin bədii düşüncə ilə birgəliyinə ən gözəl nümunələrdən birini Məhəmmədhüseyn Şəhriyarın "Eynşteynə peyğam" şeiri verir. Düşüncə və axtarış konteksti baxımından bir-birindən uzaq görünən bu iki sahənin uğurli hibridini duymaq olur bu şeirdə. Şəhriyar Eynşteyni daha yüksəklərə qalxmağa, onu öz kölgəsinin üzərindən uçmağa qanadlandırıb Allahın sirrini "tapmağa" çağırır: "Eynşteyn, daha yuxarı qalx/ Allahın özünü tap". Ədəbiyyatşünas Yaşar Qarayev haqlı olaraq burada qlobal nizamın, kosmik harmoniyanın rəmzini arayır: "Bu məqam - həm Şəhriyarla Eynşteynin, həm də irfanla ən yeni riyaziyyatın, Şərqlə Qərbin təmas və görüş məqamıdır. Sabaha, gələcəyə dünya məhz bu qapıdan keçib-getsin deyə şair alimə irfanın kodunu və möhürünü -"eşq açarını" təklif edir".

Görəsən, Eynşteynin güc aldığı mənbənin adı nə idi? Dostoyevski! Bu barədə fizikin özünün etirafı var: "Dostoyevski mənə hər bir mütəfəkkirdən, hətta Qaussdan da çox şey verir". Fizik və filosof B.Kuznetsov "Eynşteyn" kitabında bunun səbəbləri üzərində düşünərək belə şərh verirdi ki, "Eynşteyn, Dostoyevski yaradıcılığından əhəmiyyətli impuls ala bilərdi, çünki bu yaradıcılığın mərkəzində intellektual münaqişələr dururdu, çünki Dostoyevskinin poetikası rasional poetika idi, çünki onun romanının ana xətlərini təşkil edən mövzu - öz ziddiyyətlərində çırpınan, təcəssüm olunmağa can atan insan fikri idi..."

Ədəbiyyat yarandığı gündən ondakı kosmoteosentrik başlanğıc daim güclü olmuş, dünyanı küll halında görmək arzusu, təbiət hadisələrinin insanın arzuları ilə harmoniyası, qlobal vəhdət prinsipi qabarıqlığı ilə seçilmişdir. Qədim Misir, Yunan ədəbiyyatlarında, klassik nümunələrdə - Nizami Gəncəvinin "Xəmsə"sində, Ruminın "Məsnəvi"sində, Nəsimi, Füzuli qəzəllərində, Sabir, Cavid, Hadi, Abbas Səhhət şeirlərində təbiətlə insanın vəhdəti ideyası təməl prinsip kimi təlqin olunmuşdur. Hətta dünya poeziyasından maraqlı bir nümunəyə diqqət edək: Yeddinci əsr hind şairi Bhartrihari "Üç şataka" ("Üç yüz") poemasında yazırdı:

*...Yer kürəsi! Yer kürəsi!*
*Qitələrinlə, okeanlarınla*
*Nəsən sən?*
*Kainatda kiçicik bir atom!*
*Bu kiçicik bir atomu da*
*Çoxlu-çoxlu hökmdarcıqlar*
*Tikə-tikə bölməyə can atırlar.*
*Bundan ötrü*
*Dəhşətli müharibələr aparırlar!..*
*Ey dünyayaradılışının əzəli!*
*Mən bizi həyat çevrimlərinin*
*Zəncirində saxlayan Cəhaləti ataraq*
*Kainatla canbirqəlbdən qovuşuram.*

Poeziyada təbiət hadisələrinin mənalandırılması, günəş, yağış, qar, külək kimi təbiət hadisələrinin, ilin dörd fəslinin əlamətlərinin rəmzləndirilməsi bəlkə də poeziya yaranan gündən onunla qoşa addımlamışdır. İnsan içinin bədbin ovqatının payızla assosiasiya yaratması, sevilən gözəlin camalının günəşə bənzədilməsi, göz yaşının yağışla təsvirə çəkilməsi, nikbin çaların lirik "mən"in gözündə, könlündə bahar əhvalı yaratması - poeziya daim bu polifonik mənzərələrin hüdudlarında gəzişmişdir. Ən munis çalarları özündə ehtiva eləyən göy qurşağının bütün rəngləri lirikada cəmlənmişdir.

Fizikanın predmetinə daxil olan Günəş - təbiət hadisəsi ilə bağlı poeziyanın meydanda olan nümunələrin sayı ölçüyəgəlməzdir. Yerin həyat üçün əlverişli planet olmasını təmin edən məhz Günəş sistemindəki qüsursuz nizamdır. Bəs poeziyada bu fəza elementinə müraciətin səbəbi nədir? Burada da o, "nizam, kosmos yaratmaq" missiyası kimi rəzmlənə bilirmi? Materialist fəlsəfə kainatdakı nizamın, qanunauyğunluğun izahını yalnız təsadüf deyə xarakterizə edirdi. Yəni, bu açıqlamaya görə, kainatda hər şey təsadüflərə borcludur. Əslində isə təsadüfün yaratdığı harmoniya deyil, daha çox xaos ola bilər. Kainatsa düşünülmüş, məntiqi, ardıcıl sıralanmaya hesablanmış nizamdan başlayır və davam edir. Bu nizamın, dünya tarazlığının əmələ gəlməsində və qorunub saxlanmasında xüsusi rolu olan Günəş poeziyada da elə bu missiyanın daşıyıcısı statusunda iştirak edir.

XX əsrin əvvəllərində günəşə verilən lirik yozum iki kontekstdə təsvirə gəlir: bir tərəfdən, o insan ruhunun nikbinliyinin, romantikasının rəhni kimi: "Seyranə çıxıb dağda, çəməndə, /Güldükcə Günəş mən də gülərdim (H.Cavid)".

Həmçinin süqutun, tənəzzülün, şəxsiyyətin iflası məqamlarından başlanğıc götürərək: "Hər günəşə vardım ləkəli gördüm, / Hər vicdana girdim kölgəli gördüm. (H.Cavid)". M.Müşfiq lirikasının qanadlı romantikasında poeziyaya adlayan günəş: "Əllərində əllərim, gözlərində gözlərim.../Asılaydı sözlərim/ Könlünün qulağından bir qızıl tana kimi,/Günəş doğana kimi", - sonrakı, 30-60-cı illərin poeziyasına qədər həmin duyğusallığın, şeiriyyətin mənbəyi olaraq təcəssümün predmetinə çevrilir. Bu dövr poeziyası Günəş doludur, Günəş hərarətinə, Günəş işığına bələnmiş kimidir. O qədər ki, 20-ci illərin sonlarında Bakıda ilk şeir kitabını çap etdirən Nazim Hikmət ona "Günəşi içənlərin türküsü" adını qoymaqdan başqa rəmz aramır.

L.Q.Frizman "Lirik janrın həyatı" kitabında yazır: "Poeziya mənim üçün heyrətə layiq bir möcüzədir - elə bil ki, bax, indicə göydən yerə düşmüsən və özünə gələr-gəlməz gözlərini açıb... yerin, torpağın cazibəsindən məst olursan". Bütün şairlərin şeirlə birinci görüşü belə başlayır. İçinin saflıq pəncərəsindən dünyaya boylanır, ona elə gəlir ki, hər nə varsa burda, həmin saflığın - təbiət və torpaq, insan və zaman əxlaqının içindədi. Sonra başa düşür ki, əslində, belə deyilmiş, bu dünyanın həm də boz rəngləri, boz insanları, boz duyğuları varmış. Onda fərdi özünüdərk başlayır, şair içinin dərinliyinə enir, daha çox özünün mənəvi durumunu sərgiləməyə can atır. Dünya ilə dialoq sükutun monoloquna çevrilir. Hər şey bu sükuta, onun gətirdiyi tənhalığa tərk edilir. Gördüyü hər nəsnədə bu tənhalığın havasını duyur, onun yaşamına köklənir şair: "Şairi küsdürən dünyanı üzüb,/ Günəş sistemindən atmaq da azdır!" (M.Araz)

60-70-ci illər poeziyasının lirik "mən"i ekzistensial məqamlara həssaslığı ilə diqqət çəkir. Bu poeziyada şair dünyadan, təbiətdən, yaşadığı məkan və zamandan uzaqlaşıb hətta özünün belə olmadığı yerlərə səmtlənir: "Bir kimsə tutmasın xəbər,/Gəl çıxıb gedək birtəhər./Bu ev, bu küçə, bu şəhər,/Bu dəniz olmayan yerə... (R.Rövşən)". Həmin illərdə poeziya üfüqlərində bir obrazın işığı daha gur görünməyə başlayır: Tanrı! Bu obraz uzun illərin susqunluğundan sonra V.Səmədoğlu, V.B.Odər, R.Rövşən poeziyasında şeirə gətirilməklə işıq effekti yaradır: "Kimdi o göydən şığıyan?! / Dünya dolub işığıynan. / Bəlkə də, göy qurşağıynan / Düşüb Allah özü gəlir".

Mark Şaqalın "Nuh və Göyqurşağı" tablosunu xatırladan bu misralarda müəllif Göy qurşağını nərdivan obrazında əyaniləşdirməklə Allahın yer üzünə enişi simvolikasının sənət dili ilə ifadəsinə nail olur.

70-80-ci illərdən etibarən şeirimizdə başlanan yeni dekadans çalar yalnız şairlərin yaradıcılığında deyil, həmçinin poeziyamızdakı çevrilmənin başlanğıcı olaraq səciyyəvilik qazanır. Bu dövrdən başlayaraq yazılan bir çox şeirlər ruhun zamanla toqquşması zəminində meydana çıxır, bu amil əsərlərin forma və məzmununda çoxqatlılığa, fikri ekspressivliyə, poetik konstruksiyalılığa gətirib çıxarırdı. Poetik təsvirə çəkilən məqamlar müəllifinin ekzistensional düşüncəsini görükdürür, insanın daxili "mən"inə enişinin son dərəcə həssas və gizlin nöqtələrinə ayna tutmaqla poeziyanın təbiətə münasibətdə də yeni bir dönəmə adlamasını bəlli edirdi:

*O bulaq içində bir qonur daş var*
*taleyimdi mənim,*
*biz qardaş şəklində doğulsaydıq*
*o bulaq gözündə doğuldu ancaq*
*Mən insan gözündə, insan şəklində*
*o daşın qonuru o gündən bəri*
*qardaş rəngitək gözümdə qalıb.*

Vaqif Bayatlı poeziyaya daha çox intonasiya fərqliliyi gətirmiş şairdir. Bu şeirlərdə intonasiya o qədər güclüdür ki, vəznin tələblərini belə görməzdən gəlindirə bilir. Şairin təbiətə olan xitabına diqqət edək: "Gülüm yağış,/ çiçəyim yağış". Yaxud: "Qardaşım ağaclar, bacım çiçəklər"... Bu dil əslində, poeziyanı bir başqa şəkildə sevməyə, təbiəti başqa şəkildə qavramağa kömək edir.

*Qardaşım ağaclar,*
*Bacım çiçəklər, bir də söz tutdu sizi,*
*Söz tutdu, sevda qurutdu*
*Üz tutub yüyürməyin mənə sarı...*
*Bağlanıb gözümün yaş qapaqları...*

Təbiətə və dünyaya münasibətin özünəqayıdış qütbünü nişan verən bu şeirlərdə türk insanının yaşamına, milli koloritinə, etnoqrafiq özəlliklərinə, çöl başlanğıcına aid nə varsa V.Bayatlı lirikasında yenidən dirilik qazana bilir. Nəinki dirilik qazanır, insanın bir parçasına çevrilir, onunla bir olur. Şeirin metaforalar sırası dəyişir, müraciətin tonu ağaca, qarağat koluna, qonur daşa qardaşım, çiçəyə bacım, yağışa gülüm deyəcək qədər xəfif müstəviyə adlayır.

*Bir çölün düzündə*
*Qarağat koluyla qalsam baş-başa*
*O kol da*
*Kolluğundan çıxıb dönsə qardaşa,*
*Nə sorsam, nə desəm, cavab yerinə*
*Tikanlı üzünü sürtsə üzümə.*
*Uzanıb qollarım, bitib qollarım*
*Dönsə bir qayığın avarlarına*
*Sular qollarımı yuduqca yusa,*
*Yosun-yosun saçlar axdıqca axsa*
*Bir cüt mələk kimi, bir cüt ay kimi*
*Bir qızla bir oğlan buluddan çıxsa...*

Təbiətdə ərimək, yox olmaq... Bu şeirlərin semantik stixiyası sirli, təhtəlşüur dünyadan xəbər verir. Həm şairin fərdi dünyasına, yaşamına məxsus cizgilər, notlar, həm də kosmik başlanğıc, dünya kontekstindən təhlilə gələn məqamlar şeirlərdə vahid bədii məkanı təşkil edirlər. Bu universumda V.B.Odər poeziyasının fərqli çalarları bütün incəlikləri ilə təsvirə gəlir. Çöl estetikası, şaman ruhu, təbiətlə insan ahənginin birgəliyi, həyat və ölüm, mif və reallıq arasında keçidlər - hər biri onun şeirlərində təsadüfi xarakter daşımayıb, yalnız bədii deyil, həm də fəlsəfi məkanı təşkil edir:

*Bu dağların göyü quş qanadından,*
*bu torpağın üzü at nallarından,*
*çiçəklərin üzü ay işığından,*
*Doymaz könlüm, doymaz.*

Qırğız yazıçısı Çingiz Aytmatov yazırdı ki, "İnsan - təbiəti etibarilə kosmosdur"! Vaqif Bayatlı da ədəbiyyatın əbədi probleminə kosmos olaraq yanaşır, onu təbiətin və Tanrının zərrəsi olaraq alır və bəşərin əşrəfi kimi dəyərləndirir. Əsrarəngiz təbiət təsvirləri, onları obraz səviyyəsində rəmzləndirmək, şərti-metaforik çalar qazandırmaq Vaqif Bayatlının təhkiyə üsulunun mifoloji kökləri qismində təzahür edir.

Günəşə münasibətdə 60-70-ci illər poeziyasında yaranmış olan yalnız forma deyil, həm də məzmun dəyişimi - (dekadans məqamı!) 90-cı illərin şeirində daha kəskin şəkildə təzahürünü tapdı. Bu dövrün gənc ədəbi qüvvələrinin şeirlərində əsas poetik ovqat çöküş ritmi üzərində kökləndi, şairlər daha çox "darıxmaq", "təklik", "tənhalıq" düşüncəsinin təsiri altında yazmağa başladılar: "darıxmadan yaşamaq olmur/adam bir udum havadan/bir içim sudan ötrü/darıxıb yaşayır" (Sevinc Pərvanə). "Darıxmaq" demək olar ki, gənclərin həyat tərzinə çevrildi. "Bir udum havaya, bir içim suya" darıxacaq qədər dərinləşdi məsələ. Poeziyanın əlvan mənzərəsini daha sərt, kəskin boyalar əvəz eləməyə, günəşin yerini qürub, baharın yerini payız simvolikası tutmağa başladı.

*payız gələndə saralmış*
*yarpaqlara ehtiyac olmur ağacların*
*sarı yarpaqlar gözəl olsa belə*
*utanc verir ağacların dəmir qüruruna*
*yuvarlandı ömrümün baharı*
*içimin qaranlıq uçurumuna*

**Sevinc Pərvanə**

Şeirimizdə daha çox qaranlıq - "günəşsizlik" hakim olmağa başladı. Maraqlıdır ki, "qaranlıq" məfhumu 90-cı illər şeirinin əsas obrazlarından birinə çevrildi. Bu dəfə günəşin, işığın əksi, neqativi kimi... Bu poeziyada "günəş"in qürubu, yoxa çıxması insan ömrünün heçliyə, boşluğa yuvarlanması kimi simvolik məna kəsb edirdi. "Mən Günəşin batmağını seyr edirəm/ Günəş də mənim batmağımı" (Rasim Qaraca) - bu iki misrada içini qaranlıq, təklik bürüyən insanın əhvalı uğurlu əksini tapır, mənzərə tamamlanır. Rasim Qaracanın digər misralarına diqqət edək: "Günəşə nə etdiniz pis adamlar.../bir az erkən batmağa başladı". "Bir az erkən"... Yəni gəncliyin yaşanmayan illərinin, itirilən zamanın nisgilinin, müharibə gerçəklərinin, məğlubluq acısının gətirdiyi çöküşdən bəhs edir şair.

2020-ci illərdən sonra vətən göylərində olduğu kimi poeziya səmalarında da günəşin, ay və ulduzumuzun parlaq obrazı yenidən bərqərar oldu. Azadlıq və hürr duyğusunun rəmzi olaraq!

*Qovulur, qapından düşmən qovulur,*
*Qayalar çatlayır, daşlar ovulur.*
*Bir bax, başın üstdə Günəş doğulur*
*Daha dumanların dağılır, Şuşa...*

**Ramiz Rövşən**

***

Bu gün ölkə olaraq ev sahiblik edəcəyimiz və hazırlaşdığımız COP-29 tədbiri həmin azadlıq və hürr nəğməsinin siyasi həyatda davamıdır. Bütün bəşəriyyətin qurtuluşu, sağlamlığı və təhlükəsizliyi üçün çalınan birlik türküsüdür.

Sənət, ədəbiyyat isə... Xilasdır dedik. Günəşi qorumaq məqamından gedir söhbət. 80-ci illərin sonlarında poeziya üfüqlərində qəfil gün işığı kimi doğub elə gəldiyi qəfil sürətlə də qeybə çəkilən şair Faiq İsmayılovun bir şeirini xatırlayıram. Günəşi canına çəkib sevgi nəğmələri yazan və Azərbaycan poeziyasına dopdolu sənət miras qoyan Faiq İsmayılov bu şeirdə günəşi bir gözəllik möcüzəsi kimi təsvir edib:

*Günəş şirədi başdan-ayağa,*
*Arıların qanadı yanmasa*
*Uçarlar düz Günəşə.*
*Budaqlardan asılıb*
*Günəşdən şirə çəkir*
*"mələs gülöyşə".*

*İçmişəm günəş şirəsi*
*və günəş kimiyəm.*
*dilimdən düşməyir*
*sevgi nəğməsi!*

Bütün sevgi nəğmələri Günəşi içənlərin türküsüdür!



**ELNARƏ AKİMOVA**
**Milli Məclisin deputatı,**
**YAP İdarə Heyətinin üzvü,**
**filologiya elmləri doktoru**

# Balanslaşdırılmış və çoxşaxəli siyasət

## Azərbaycanın beynəlxalq aləmdə rolu...

**Azərbaycan bir çox sahələrdə olduğu kimi, region ölkələri, beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində də islahatlar siyasətinin davamlı tərkib hissəsi olaraq xüsusi addımlar atır.**

**Son dövrlər ölkəmizə olan marağın və inamın nəticəsində Azərbaycan dövlətinə bir çox sahələrdə çoxşaxəli əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı təkliflər artmaqdadır. Bu da Azərbaycanın güvəniləcək bir dövlət, ölkə başçısı İlham Əliyevin bir şəxsiyyət, dövlət xadimi və ölkə rəhbəri kimi dünya liderləri arasında xüsusi çəkiyə malik olmasının bariz nümunəsidir. Bu baxımdan dünya birliyinə inteqrasiya prosesinin sürətlə getdiyini sadəcə, görmürük, eyni zamanda, bu dövrün müasirləri olaraq hər birimiz öz sahəmizdə bunu hiss edir və yaşayırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, Azərbaycanda həyata keçirilən siyasətin əsas məqsədlərindən biri də dünya birliyinə inteqrasiya, beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsindən ibarətdir. O, qeyd edib

### Ölkəmizin dünya miqyasında nüfuzu...

ki, dövlətimiz bu siyasəti 1990-cı illərin əvvəllərindən - Heydər Əliyevin hakimiyyətə gəlməsindən bəri uğurla davam etdirir: "Azərbaycan bu gün bölgə ölkələri ilə qarşılıqlı əməkdaşlıq, beynəlxalq aləmdə öz sözünü demiş böyük dövlətlərlə uğurlu tərəfdaşlıq fonunda, həm də dünyanın aparıcı beynəlxalq qurumlarında kifayət qədər fəal iştirak edir. Möhkəm təməl üzərində yaradılan güclü iqtisadi potensial, toplanmış maliyyə resursları, cəmiyyət həyatının bütün sahələrinin dinamik tərəqqisi, enerji, ərzaq təhlükəsizliyi kimi məsələlərin uğurla həlli Azərbaycana tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürütməyə imkan verib. Ümumiyyətlə, həyata keçirilən qlobal miqyaslı tədbirlər Azərbaycanın dövlətlərarası əlaqələrini gücləndirməklə bərabər, həm də ölkəmizin dünya miqyasında nüfuzunun daha da artırılmasını, Cənubi Qafqazda lider dövlətə çevrilməsini şərtləndirib".

### Beynəlxalq aləmdəki mövqelərimiz güclənir

İ.Hüseynovun sözlərinə görə, şübhəsiz ki, dövlətimiz atmış olduğu bütün




addımlarda beynəlxalq hüquq normalarına əsaslanaraq, ədalət prinsipinə söykənərək, ən əsası ölkəmizin milli maraqlarını rəhbər tutur: "Bu da yalnız və yalnız Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmətin vacib bir nümunəsidir ki, dövlət başçımızın rəhbərliyi altında həyata keçirilir.

Azərbaycan Cənubi Qafqazda yaranan yeni reallıqlar kontekstində beynəlxalq təşkilatlarla fəal iş səviyyəsinin həcmini genişləndirir. Bütün bu proseslər Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi və düzgün istiqamətdə görülən işlərin müsbət nəticəsidir. Yaxın zaman çərçivəsində Azərbaycanın bu istiqamətdə daha ciddi uğurlar əldə edəcəyi gözlənilir. Prezidentin uğurlu daxili və xarici siyasəti ölkəmizin beynəlxalq aləmdə mövqelərini ildən-ilə daha da gücləndirir və bundan sonra da gücləndirəcək".

### Azərbaycan beynəlxalq münasibətlərin fəal iştirakçısıdır

Politoloqun sözlərinə görə, bu gün ölkəmizin dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi siyasəti balanslaşdırılmış və çoxşaxəli formada davam etdirilməkdədir: "İkitərəfli əlaqələrin inkişafına önəm verən Azərbaycan ilk növbədə, qonşu dövlətlər olan Türkiyə, Rusiya və Gürcüstan ilə qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığını genişləndirməkdədir. Azərbaycan həm də region dövlətləri arasındakı münasibətlərin geniş potensialından yararlanmaq məqsədilə yaradılan üçtərəfli formatların fəal iştirakçısıdır. Beynəlxalq münasibətlərin fəal iştirakçısı olan Azərbaycan xarici siyasətində qlobal və regional səviyyəli nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa da böyük önəm verir. Ölkəmiz, həmçinin Avropa İttifaqı, NATO kimi təşkilatlarla siyasi, iqtisadi, təhlükəsizlik kimi sahələrdə sıx əməkdaşlıq edir. Bütün bunlar onu göstərir ki, Azərbaycan beynəlxalq birliyin müstəqil və tamhüquqlu subyekti kimi öz milli maraq və mənafelərini qarşılıqlı hörmət və ortaq faydalanma prinsipləri çərçivəsində həyata keçirir. Reallaşdırılan çoxvektorlu və uzaqgörən xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb, eləcə də ölkəmizin beynəlxalq arenadakı mövqeyi möhkəmlənib".

*Yeganə BAYRAMOVA*

# Cəbrayıl “yaşıl enerji” rayonuna çevrilir

## İlk mərhələdə 229 hektar ərazidə bərpa olunan enerji stansiyaları qurulacaq

Baş nazir Əli Əsədov Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında qərar imzalayıb. Sənədə əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi qoyuluş gücü ilkin mərhələdə 50 MVt olmaqla, ümumilikdə, 100 MVt gücündə olan Günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib. Bununla da, rayonda Günəş elektrik stansiyasının tikintisi üçün ayrılan torpaq sahəsi 1169 hektara çatıb.

Hökumətin bu qərarı azad ərazilərin zəngin “yaşıl enerji” ünvanlarından biri kimi Cəbrayılda bərpa olunan enerji layihələrinə yerli və xarici investorların axını üçün münbit şəraitin yaradılmasına xidmət edir. Adıçəkilən rayonda təməlləri qoyulmuş alternativ enerji infrastrukturlarının qurulmasında dövlətin dəstəyini və təşviqedici niyyətini əks etdirməklə, bərpa olunan enerji sektoruna əlavə stimullar verilməsini nəzərdə tutur.

### “Xudafərin” və “Qız Qalası” - “yaşıl hidrogen”in əsas sütunları...

Qeyd edək ki, Cəbrayıl rayonunun aid olduğu Şərqi Zəngəzur bölgəsi külək, Günəş, su, bioresurslar və termal su mənbələri baxımından nəhəng enerji potensialına malikdir. Ortamüddətli inkişaf konsepsiyasına əsasən, bu ərazilər “Yaşıl Enerji Zonası” elan edilib və Yaponiyanın “TEPSCO” şirkəti tərəfindən müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Həmin modelə əsasən, “Yaşıl Enerji Zonası”nda enerji istehsalı üçün bir neçə dayanıqlı mənbə müəyyən edilib. Qarabağ və Şərqi-Zəngəzurda azad ərazilərin hidroenerji, külək və Günəş enerjisi, termal su mənbələrinin həcmi ölkə üzrə resursların təxminən 30-40 faizini təşkil etdiyi müəyyənləşib. İlkin qiymətləndirmələrə görə, azad olunmuş ərazilərinin 7200 meqavat Günəş enerjisi və 2000 meqavat külək enerjisi potensialı var. Təkcə, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur.

Bu bölgədə bərpa olunan enerji resurslarının əsas mənbələrindən biri kimi Cəbrayıl rayonunun coğrafi-relyef və ərazi xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Cəbrayıl və Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kv.metr üfüqi səthə düşən Günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Həmin ərazilərin ümumi Günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Bu yerlərdə eləcə də külək enerjisi istehsalı üçün də münbit şərait var.

Həmçinin, Cəbrayıl hidroenerji ehtiyatlarına görə, bölgənin ən zəngin rayonudur. Rayonu ərazisində, Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” adlı iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir ki, bu 2 güc birlikdə azad ərazilərin “yaşıl hidrogen” resurslarının yarısından çoxdur.

### “Nobel Energy” və bp şirkətinin Günəş stansiyaları

Cəbrayıl rayonunun alternativ enerji resursları xarici ölkələrin nüfuzlu enerji şirkətlərinin də marağına səbəb olmaqdadır. Bunları nəzərə alan sərmayədarlar

Azərbaycan hökuməti ilə enerji infrastrukturlarının yaradılması sahəsində səmərəli müzakirələr aparıb və ilk müsbət nəticələr əldə olunub. 2024-cü ilin ilin mart ayında “Nobel Energy” şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının inşasına start verilib. Tikintisi iki mərhələdə həyata keçiriləcək layihəyə əsasən, ilk fazada 50 MVt-dan ibarət stansiya gücü 2027-ci ildə istifadəyə veriləcək. İkinci fazanın isə sonrakı illərdə başa çatdırılması planlaşdırılır. Stansiyanın tam gücü ilə enerji blokuna çevrilməsindən sonra ildə təxminən 180 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq ki, bu da 58 min evin enerjisi ilə təminatı deməkdir. Layihənin tikintisinə 600 nəfər işçi qüvvəsi cəlb olunacaq, stansiya istifadəyə verildikdən sonra isə orada 80 nəfər daimi iş yeri ilə təmin ediləcək.

Cəbrayılda digər enerji infrastrukturunun təməli ötən ay - oktyabrın 2-də bp şirkəti ilə SOCAR arasında “Şəfəq” layihəsinin icrasına dair sazişin imzalanması ilə qoyulub. “SOCAR Green” MMC və bp-nin birgə iştirak müqaviləsinə əsasən, Cəbrayılda 240 MVt-lıq “Şəfəq” Günəş Elektrik Stansiyası (GES) inşa ediləcək ki, bu layihədə ən qabaqcıl “ağıllı enerji texnologiyaları”ndan - “Virtual Enerjinin Ötürmə Mexanizmi” modelindən ilk dəfə istifadə olunacaq. Nəticədə bu model Günəş enerjisi istehsalından əldə olunan enerjinin “AzərEnerji” ASC vasitəsilə birbaşa milli elektrik şəbəkəsinə ötürülməsinə imkan verəcək.

“Şəfəq” layihəsi “yaşıl iqtisadiyyat” quruculuğunun tərkib hissəsi kimi təmiz enerjiyə keçiddə mühüm mərhələ açacaq




və Şərqi-Zəngəzurun enerji təminatının gücləndirilməsinə, habelə milli “yaşıl enerji” sisteminə inteqrasiyanın təmin edilməsinə və nəticə etibarilə Xəzər dənizi və Səngəçal terminalında karbon emissiyalarının azaldılmasına töhfə verəcək. Bu stansiya dünyanın ən böyük neft-qaz terminallarından biri Səngəçalı elektrikləşdirməklə karbohidrogenlərlə “yaşıl enerji”nin vəhdətinin nümunəsi olacaq.

### Çin və Ərəb şirkətlərindən “yaşıl enerji”yə “yaşıl işıq”...

Bütün bu layihələrlə yanaşı, Cəbrayılda bərpaolunan enerji potensialının qiymətləndirilməsi istiqamətində digər sərmayəçilərlə işlər davam etdirilir, Çin və Ərəb ölkələrinə məxsus şirkətlərin bölgədə təmsil olunması istisna deyil. “China Gezhouba Group Overseas Investment” şirkəti Füzulidə 160 MVt gücündə iki günəş elektrik stansiyasının tikintisi ilə yanaşı, Cəbrayılda da eyni tipli layihə icra etməyi planlaşdırır. Eləcə də körfəz ölkələrinin investorlarından Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin investisiya proqramında bölgədə “ağıllı enerji” ötürcülərinin qurulması yer alır. Yeri gəlmişkən, bir neçə gün əvvəl ərəb şirkəti Bakıda törəmə müəssisəsini - “ACWA Power Technical Financial Services”i yaradıb ki, bu da “yaşıl enerji” sahəsində imkanların daha da artırılacağına işarə edir.

Hazırda dünyanın ən nəhəng enerji şirkətləri də Azərbaycanda “yaşıl enerji” sektoruna, o cümlədən azad ərazilərə sərmayə planlarını bəyan edib. “Masdar”, “ACWA Power”, “BP”, “Fortescue Future Industries”, “China Gezhouba Group”,”Total Energies”, “Nobel Energy”, “Czech Engineering”, “Baltech” və digər şirkətlər azad ərazilərdə, o cümlədən Cəbrayılda “yaşlı enerji” layihələrində təmsil olunmaq niyyətindədir.

*E.CƏFƏRLİ*

# Daşınmaz əmlakın elektronlaşdırılması başlayır

## Elektron Reyestr və Kadastr sistemi sənədi olmayan evləri qeydə almayacaq

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti daşınmaz əmlakın qeydiyyatının rəsmiləşdirilməsini təmin edən elektron portalı 2024-cü ilin sonuna qədər vətəndaşların istifadəsinə verəcək. Dövlət qurumlarının müvafiq rəyi və icazəsi əsasında bütün sənədləri qaydasında olan evlərin və mənzillərin həmin portal üzərindən rəsmiləşdirilməsi, yəni mülkiyyət hüququna dair çıxarışın (kupça) alınması mümkün olacaq. Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı informasiya sistemində qeydə alınan ev və mənzillərin çıxarışlarına dair müvafiq məlumatlar vətəndaşın şəxsi kabinetində öz əksini tapacaq. Onlar “Elektron Hökumət” portalının daşınmaz əmlak bölməsinə daxil olmaqla çıxarışlarını əldə edəcəklər.

Elektron informasiya sisteminin yaradılmasında məqsəd daşınmaz əmlakın dövlət kadastrı və reyestri sahələrində idarəetmə sisteminin təkmilləşdirilməsi, şəffaflığın və operativliyin artırılması, əmlakın qeydiyyatı ilə bağlı xidmətlərin elektronlaşdırılması və keyfiyyətinin yüksəldilməsi, nəzarət mexanizmlərinin və elektron sənəd dövriyyəsinin genişləndirilməsidir. Beləliklə, vətəndaşlar fiziki ünvana getmədən öz elektron kabinetlərində topladıqları zəruri sənədləri Dövlət Xidmətinin portalına təqdim etməklə asan və rahat şəkildə mülkiyyət sənədinə sahib olacaqlar. Bu isə vaxt itkisinin qarşınının alınması, kağız dövriyyəsi və kargüzarlığın ləğvinə səbəb olmaqla, ölkəmizdə ətraf mühitin qorunması strategiyasının bir hissəsi kimi rəqəmsal dövlət quruculuğunun daha da genişlənməsinə töhfə verəcək.

### 8-ci maddənin tələbləri...

Məsələ ondadır ki, elektron portalın istifadəyə verilməsi bütün vətəndaşların rahatlıqla çıxarış və ya kupça almasını təmin edə bilməyəcək. Dövlət Xidmətindən verilən məlumata görə, insan sağlamlığı və fəaliyyətinə təhlükə törətməyən ərazilərdə tikilmiş mənzillər yalnız portal üzərindən rəsmiləşdiriləcək. Portalda rəsmi hüquqi sənədlərlə müəyyən edilən daşınmaz əmlakların qeydiyyatı aparılacaq və Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı informasiya sistemi müvafiq rəsmi sənədlərlə təmin olunmayan müraciətləri emal etməyəcək.

Sistem yalnız “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanununun 8-ci maddəsində nəzərdə tutulmuş hüquqi müəyyənedici sənədləri olan daşınmaz əmlaklar üzərində qeydiyyatı prosesinin elektronlaşdırılmasını nəzərdə tutur.

“Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunun 8.0.6-cı maddəsinə əsasən bina evlərində mənzillər üzərində hüquqların dövlət qeydiyyatı üçün mənzil-tikinti kooperativinin (MTK) ümumi yığıncağının qərarı və müvafiq təqdimat sənədi, vətəndaşın əmlak qurumuna yazdığı ərizə, şəxsiyyəti təsdiq edən sənəd tələb olunur. Fərdi yaşayış evlərində isə müvafiq icra hakimiyyəti orqanının və bələdiyyələrin əmlakın mülkiyyət hüquqularına dair zəruri razılıq sənədləri və mənzilin kommunal-məişət vəziyyəti barədə mənzil istismar təşkilatının arayışı (2 №-li forma) tələb edilir. Habelə Mənzil Məcəlləsi qüvvəyə minənədək, yəni 2009-cu il oktyabrın 1-dək dövlət və ya ictimai mənzil fondunda yaşayış sahəsi olan şəxslərin mülkiyyətə dair çıxarış alması üçün müvafiq icra hakimiyyəti orqanının sərəncamı, order və ya mənzil kirayəsi müqaviləsi lazımdır.



### Bələdiyyənin təminatı olmayan Qərarı...

Ən böyük problem isə fərdi yaşayış evlərinin mülkiyyət hüquqlarının əldə edilməsi ilə bağlıdır, mənzillərin dövlət qeydiyyatına alınması üzrə problemlərin 90-95 faizi məhz bu tikililərə aiddir. Həmin evlərə çıxarış almaq üçün torpaq sahəsi üzərində mülkiyyət və istifadə hüququnu təsdiq edən sənədlər tələb olunur. Həmin sənədlərin sırasında tikintiyə dair müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə, tikinti obyektinin layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanına sifarişli poçt göndərişi ilə və ya bilavasitə məlumat verilməsini təsdiq edən sənəd, yaşayış evinin istismara qəbul aktı mütləqdir. Eləcə də “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” qanununun 6.2-ci maddəsinə uyğun olaraq yaşayış evinin inşa edilməsi məqsədilə torpaq sahəsinin ayrılması barədə Bələdiyyənin Qərarı və alqı-satqı (aktla tərtib edilmiş) müqaviləsi, 2007-ci il dekabrın 1-dən isə hərrac protokolu və hərracın nəticələrinə uyğun olaraq bağlanmış alqı-satqı müqaviləsi tələb olunur. Həmin qərarların əksəriyyəti isə hazırda faktiki olaraq əmlakın rəsmiləşdirilməsi üçün hüquqi təminat vermir.

Vətəndaşlar bütün bu sənədləri Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq rayon və yerli şöbələrinə təqdim etdikdən sonra 2 həftə ərzində mülkiyyət hüququna dair çıxarış əldə edə bilirlər.

### Bakı və Abşeronda 700 minə yaxın sənədsiz ev problemi...

Göründüyü kimi daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, yəni çıxarışın (kupça) alınması üçün vətəndaşlar ilkin zəruri sənədləri toplamalıdır. Həmin sənədlər olmadıqda və yaxud hüquqi müəyyənedici tələblərə cavab vermədikdə mənzil və fərdi evlərin rəsmiləşdirilməsi mümkün olmayacaq.

Hüquqi tələblərə cavab verməyən evlər və mənzillər etibarsız mülkiyyət növü, sənədsiz əmlak kimi tanınır. Hazırda paytaxt və paytaxətrafı ərazilərdə, habelə Abşeron rayonu ərazisində tikilmiş fərdi evlərin 90 faizindən çoxunun yuxarıda qeyd edilən müvafiq sənədləri yoxdur. Təxmini hesablamalara əsasən, ölkəmizdə ümumilikdə, 1 milyona yaxın sənədsiz ev var ki, onun təxminən 700 mini paytaxtın və Abşeron rayonun payına düşür. Həmin evlər mühəndis-kommunikasiya xətlərinin üzərində və yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin altında, digər kommunikasiya qurğularının ətrafında, eləcə də dəmiryol xəttinin yaxınlığında inşa edilib. Onların bir qismi sovet dövründə, qalanı isə müstəqilliyin ilk illərində inşa edilib və əksəriyyətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən müəyyənedici aktı yoxdur.

### “Əmlak amnistisiyası” mümkün olacaqmı?

Bundan başqa, bir çox evlər bələdiyyələr tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa olunub. Həmin evlərin içərisində mühəndis-kommunikasiya qurğularının yaxınlığında yerləşməyən, yəni hüquqi baxımdan sənədləşdirilməsi mümkün olan evlərin sayı kifayət qədər çoxdur. Bu məqsədlə Torpaq Məcəlləsinə təklif edilən dəyişiklikdə bu məsələlər nəzərə alınacaq. Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin sözlərinə görə, kənd təsərrüfatı təyinatlı torpaqda tikilən evlərin sənədləşdirilməsi üçün torpaqlarda təyinat dəyişikliyi olmalıdır. Yaxud həmin daşınmaz əmlak sahəsinə amnistiya elan edilmədir.

Bütün bu amillər evlərə mülkiyyət hüququna dair çıxarışın verilməsi də hüquqi addımlar atmağa mane olur.

Mövcud vəziyyət isə illərdir ki, həmin evlərin sənədləşdirilməsi ilə bağlı məsələnin həllini tələb edir. Dövlət orqanları həmin evlərin mülkiyyət hüququnun təmin edilməsi üçün optimal yol tapılmasını, bir çox ölkələrdə tətbiq edilən “əmlak amnistisiyası”nı həyata keçirməyə çalışır. Bu məqsədlə bir neçə il əvvəl müvafiq orqanlara bu sahədə müəyyən güzəştlərin tətbiqi tövsiyə edilib və sənədsiz evlərlə bağlı 2018-2019-cu illərdə bütün mənzil-kommunal təsərrüfatı birlikləri və bələdiyyələr tərəfindən uçot işi aparılıb və zəruri məlumatlar rayon icra hakimiyyətlərinə təqdim olunub. Bu, həmin evlərin sənədləşdirilməsi istiqamətində mərkəzləşdirilmiş şəkildə müvafiq dəqiqləşdirmələrin aparılması və uçot məlumatlarının toplanması baxımından mühüm addım hesab edilir. Bununla da ən yüksək dövlət orqanlarının birgə koordinasiyası sayəsində sənədsiz evlərin qeydiyyatının aparılmasına başlanlıb.




### Şəhərsalma və Tikinti Məcəlləsi hansı tikililərə hüquqi zəmin yaradır?

Qiymətləndirmələrdən sonra Milli Məclisdə Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişikliklər edilib və yeni dəyişikliklər sənədsiz evlərin mülkiyyət hüququnun tanınması üçün bir sıra istisnaları nəzərə tutur. Belə ki, 2023-cü il martın 1-dək inşa edilmiş, lakin etibarlılıq və təhlükəsizlik tələblərinə uyğunluğuna dair rəyi təqdim edən sahələrinin çıxarışla təmin edilməsinə icazə verilir. Əvvəllər hansı ildə inşa edilməsindən asılı olmayaraq tikintisi sözügedən Məcəllənin tələblərinə uyğun aparılmayan amma etibarlılığı və təhlükəsizliyi olan bütün qeyri-yaşayış sahələrinin istismarına icazə verilməsi nəzərdə tutulur. Ancaq insan sağlamlığı və fəaliyyətinə təhlükə törədən sahələrdə inşa edilmiş mənzillər üçün güzəştlərin tətbiqi istisnalıq təşkil edir. Həmin evlər kommunikasiya xətlərinin mühafizə zolağında inşa olunub, tikinti normativlərinin tələblərinə cavab vermədiyindən müvafiq icra orqanları ərazinin mühəndis-kommunikasiya zonalarının mürəkkəbliyini, elektrik xətti, qaz, su, kanalizasiya, digər kommunikasiya qurğularının yaşayış təhlükəliliyini nəzərə alaraq müəyyənedici aktın tərtib edilməsini qeyri-mümkün sayır. Bu baxımdan həmin evlərin sənədləşməsi qanunvericliyin yumşaldılan və güzəşt tələblərinə də uyğun gəlmir. Bu tikililərin ümumiyyətlə sıfırdan heç bir sənədinin olmamasıdır, onların böyük bir qisminin heç ünvanı yoxdur, bir qismi isə SOCAR-ın, neftçıxarma trestlərinin, digər dövlət orqanlarının ərazisində yerləşir ki, buranın mühəndis qurğuları və planı tikintinin tanınmasına yol vermir.

Beləliklə, Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı informasiya sisteminin fəaliyyətə başlaması sayəsində bütün ev və mənzillərin çıxarışlarla təmin edilməsinə səbəb olmayacaq. Təkcə paytaxtdakı 600 minə yaxın sənədsiz evin böyük əksəriyyəti “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanun, Torpaq, Tikinti və Mülki Məcəllənin, digər qanunvericilik aktlarının tələblərinə cavab vermədiyindən əmlakların mülkiyyət hüquqları ilə təmin edilməsi növbəti illərə qalacaq.

*E.CƏFƏRLİ*

# Regionda Aİ missiyasına kimin ehtiyacı var?

## Moskva etiraz edir, Tehran susur...

Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının gerçək məqsədi regionda sülhə töhfə vermək deyil. Ötən dövrdə baş verən proseslər göstərdi ki, bu missiya mülki deyil, hərbi-kəşfiyyat xarakteri daşıyır. Missiya üzvlərinin əvvəllər hərbi-təhlükəsizlik sahəsində çalışmaları da bunu təsdiqləyir.

Yeri gəlmişkən, bu yaxınlarda Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının rəhbəri Sarkis Xandanyan deyib ki, Azərbaycanla sərhəddəki vəziyyətə nəzarət etmək üçün Avropa İttifaqının mülki müşahidə missiyasının Ermənistan ərazisində olması "Bakının deyil, sırf Brüssel və İrəvanın işidir". Onun iddiasına görə, "Avropa İttifaqı müşahidəçilərinin Ermənistanda olması sırf Ermənistanla Avropa İttifaqı arasında müzakirə olunan məsələdir. Müşahidəçilər Ermənistan ərazisində yerləşdirilib və sərhədi Ermənistan tərəfdən izləyirlər. Müvafiq olaraq, missiya ilə bağlı yalnız bu tərəflər qərar verməlidir". Ermənistanın Təhlükəsizlik Şurasının katibi Qriqoryan isə Avropaya səfəri çərçivəsində monitorinq missiyasının regionda təhlükəsizlik və sabitliyin təmin edilməsində "rolunu yüksək qiymətləndirib".

### Missiya Fransa casuslarından ibarətdir

Bütün bunlar bir daha təsdiqləyir ki, Aİ missiyasının bu addımlarının əsas səbəbkarı rəsmi İrəvandır. Ermənistan hakimiyyəti bu cür addımları ilə regionda prosesləri öz xeyrinə dəyişməyi qarşısına məqsəd qoymuşdu. Belə hallar bölgədə sülhün əldə edilməsinə mane olmaqdan başqa bir şey deyil. Bu baxımdan, Aİ missiyasının Ermənistanda gücləndirilməsi Fransanın və Avropadakı digər ermənipərəst qüvvələrin növbəti siyasi oyunudur. Bu günlərdə daha bir qrup "müşahidəçinin" Zəngilanla sərhəddə yerləşən Ermənistanın Nerkin Hand kəndi yaxınlığına gələrkən, görünən mənzərə də bunu təsdiqləyir. Belə ki, indiyədək "müşahidəçilər" Avropa İttifaqına məxsus avtomobillərdə hərəkət etdiyi halda, həmin gün sərhədə gələn 3 avtomobildən birinin üzərində Fransa bayrağı dalğalanıb. Sərhəd kəndə gələn avtomobillərdə 6 nəfər mülki geyimli şəxs olub. Bu şəxslərin Fransanın kəşfiyyat orqanlarının əməkdaşları olduğu da istisna deyil. Bu isə onu deməyə əsas verir ki, Fransa artıq Aİ adı altında maskalanmadan kəşfiyyat orqanlarının əməkdaşlarını açıq şəkildə öz bayrağı altında Azərbaycanla sərhəddə yerləşdirməyə başlayıb. Beləliklə, Ermənistanı sülhdən yayındıran ən əsas xarici qüvvə sayılan Fransanın növbəti dəfə müharibə axtarışında olması, yeni eskalasiyalar arzulaması bir daha sübut olunur.

### Avropa Parlamenti missiyanın müddətini uzatmaq istəyir

Bundan əlavə, Avropa Parlamentinin oktyabrın 24-də Azərbaycana qarşı qəbul edilmiş qətnaməsində də sözügedən missiya dəstəklənib. "Sənəd"də Avropa İttifaqına və onun üzv dövlətlərinə Aİ-nin Ermənistandakı missiyasının mandatını gücləndirmək, daha da artırmaq və fəaliyyət müddətini uzatmaq çağırışı edilib. Eləcə də qətnamənin lehinə səs verənlər Aİ-nin bir neçə üzv dövlətinin Ermənistana müdafiə hərbi dəstəyinin göstərilməsi istiqamətində hərəkətlərini alqışlayıb və üzv dövlətləri oxşar təşəbbüsləri nəzərdən keçirməyə çağırıblar.

Görünən odur ki, dünyada baş verən proseslər fonunda Ermənistan "manevrlər" etməyə çalışır, amma heç nəyə nail ola bilmir. Aİ missiyası isə kəşfiyyatla məşğul olmaqdadır.

### Rusiya Aİ missiyasının əleyhinədir, İran isə susur...

Xatırladaq ki, Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində mülki monitorinq missiyası 2022-ci il oktyabrın 17-dən fəaliyyət göstərir. Bununla bağlı liderlərin Praqa görüşündə razılıq əldə olunmuşdu. Azərbaycanın da razılığına əsasən 40 nəfərdən ibarət missiya iki ay ərzində Ermənistanda fəaliyyət göstərməli idi. Lakin sonradan Azərbaycanın razılığı olmadan Ermənistanla Aİ bu missiyanın fəaliyyətinin uzadılmasına və genişləndirilməsinə qərar verdilər. Azərbaycan missiyanın uzadılmasını və üzvlərin sayının artırılmasının regionda sülhə xidmət etmədiyi qənaətindədir.

Digər tərəfdən, Rusiya da Aİ missiyasının Ermənistanda yerləşdirilməsinin əleyhinədir. Rəsmi Moskva Aİ missiyasının regionda kəşfiyyat məqsədilə yerləşdiyini dəfələrlə bəyan edib.

Təəccüblü olan isə budur ki, Qərb ölkələri ilə ciddi problemlər yaşayan regionun digər dövləti İran Aİ missiyasının Ermənistanda yerləşdirilməsini sükutla qarşılayır. Halbuki, İran Qərb ölkələrinin ağır sanksiyaları altındadır. Belə olan halda, rəsmi Tehran Qərbin kəşfiyyatçılarının qonşusu Ermənistanda yerləşdirilməsinə nə üçün etiraz etmir? Burada səbəb yalnız Zəngəzur dəhlizi ilə ola bilər. Görünən odur ki, bu dəhlizin açılmaması naminə İran hətta Fransa casuslarının Ermənistanla sərhədində yerləşdirilməsinə etiraz etmir.



### Erməni təxribatları zamanı susanlar...

Hazırda missiya üzvlərinin sayı 209 nəfərədək artırılıb. Bundan əlavə, ötən ilin sonlarında Yeğeqnazorda da (Dərələyəz mahalı) Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının qərargahının açılış mərasimi oldu. Açılış mərasimində missiyanın rəhbəri Markus Ritter çıxış edərək bildirmişdi ki, Aİ-nin Ermənistandakı missiyası fəaliyyətə başlayan zaman iki daimi işçisi və üç sahə ofisi olub. Lakin sonradan Aİ-nin 23 dövlətindən əlavə nümayəndələr göndərilib. Missiya Qafan, Gorus, Cermuk, İcevanda və digər yerlərdə də özünə ofislər açıb.

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanatlar verərək bildirib ki, sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinin əksinə olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsinə çevrilib. Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə töhfə verən "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb.

Bəs Aİ-nin missiyası sərhəddə konkret hansı işlərlə məşğul olub? O, sülhə töhfə verə bilibmi, yaxud da Ermənistanın hərbi təxribatlarının qarşını alıbmı? Əlbəttə, yox. Missiya üzvləri ötən dövrdə yalnız binoklla sərhəddən Azərbaycana baxmaqla kifayətlənib, hərdən də bir sıra ölkələrdən gələn rəsmilər, eləcə də diplomatlarla birlikdə uzaqda Azərbaycan ərazilərini seyr etməklə məşğul olublar. Ötən dövrdə erməni tərəfi bir sıra hərbi təxribatlar törədib ki, Aİ missiyası o zaman ortalıqda görünməyib. Yəni onlar erməni təxribatının qarşısını almaq üçün heç bir addım atmayıblar.

### Tərəflər sərhədlərin demarkasiyasını vasitəçisiz reallaşdıra bilirsə...

Baş verənlər onu deməyə əsas verir ki, həqiqətən də, regionda belə bir missiyaya ehtiyac yoxdur. Çünki artıq Azərbaycan və Ermənistan birbaşa danışıqlara üstünlük verir. Eləcə də, tərəflər arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə hökumət komissiyalarının birgə işi haqqında sənədin imzalanması Aİ missiyasının Ermənistanda mövcudluğunu davam etdirməsinə lüzum olmadığını göstərir. Üstəlik, bugünlərdə Ermənistan hökuməti Azərbaycanla sərhədin delimitasiyası üzrə komissiyalar haqqında Əsasnaməni də təsdiqləyib.

Əldə edilən razılığa uyğun olaraq may ayında Qazaxın işğal altında olan 4 kəndi Azərbaycana qaytarılıb. Belə ki, ikitərəfli dialoqun nəticəsi olaraq Qazax rayonunun Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri ölkəmizə təhvil verilib. Mayın 24-də qeyd olunan kəndlərin əraziləri Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb. Bütövlükdə, hazırda hər iki tərəf hansısa kənar vasitəçi olmadan sərhədlərin delimitasiya və demarkasiyası işlərini davam etdirirlər. Bu işlərin nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib.

Bütün bunlar onu göstərir ki, Azərbaycanla Ermənistan arasında məsələlərin həllində üçüncü qüvvələrə ehtiyac yoxdur. Bu baxımdan, Aİ-nin monitorinq missiyasına da hər hansı zərurət duyulmur.

***Nardar BAYRAMLI***

# Avropa qapılarını "bağlayır"

Son vaxtlarda ölkələr arasında sərhədlərdə keçidin məhdudlaşdırılması praktikasına tez-tez müraciət olunur. Dövlətlərin belə bir zəruri tədbirə əl atmaları isə müxtəlif amillərlə şərtlənir. Məsələn, yeni növ koronavirus pandemiyası dönəmində dünya məhz epidemiyanın yayılma arealını və sürətini məhdudlaşdırmaqdan ötrü sərt qapanmalara getmək məcburiyyətində qaldı. Hazırda isə bəzi ölkələr terror təhlükəsindən sığortalanmaq, artan miqrant axınının qarşısını almaqdan ötrü "sərhəd diplomatiyası"na üz tuturlar. Bu proses xüsusilə də Avropa İttifaqı (Aİ) məkanında geniş vüsət alıb. Belə ki, Aİ ölkələrinin əksəriyyəti sərhəd nəzarətini gücləndiririb.

### Şengen zonasında daxili keçidin məhdudlaşdırılması

Avropa İttifaqı məkanında ölkələr arasında sərbəst gediş-gəliş mövcuddur ki, bu da Şengen müqaviləsi ilə tənzimlənir. Sözügedən müqavilə 1985-ci ildə beş ölkə tərəfindən imzalanıb və o vaxtdan indiki 27 ölkəyədək genişlənib. Ən yeni Şengen ölkəsi Xorvatiyadır. Bu ölkə Şengen zonasına 2023-cü ilin yanvarında qoşulub. Şengen zonasındakı ölkələr öz suverenliklərini qoruyub saxlasalar da, müəyyən təhlükəsizlik və immiqrasiya məsuliyyətlərini bölüşürlər. Ötən il Avropa İttifaqı Şengen vizasına müraciətlərin onlayn şəkildə həyata keçirilməsini nəzərdə tutan qaydaları təsdiqləyib. Yeni qaydalar müvafiq zona daxilində ölkələr arasında keçidi daha da asanlaşdırmağı hədəfləyir.

Bununla belə, hətta Aİ məkanının özündə də - Şengen zonasında da ölkələr arasında keçidə məhdudiyyətlər tətbiqi halları getdikcə artır. Belə ki, Şengen zonasındakı bəzi ölkələr 2023-cü ildən etibarən blok daxilində insanların sərbəst hərəkətinə məhdudiyyətlər tətbiq etməyə başlayıblar. Cari ildə Almaniya və Fransanın ardından Niderlandda da Avropa İttifaqının daxili sərhədlərində sərhəd nəzarətinin tətbiqi planlaşdırılır.

Aİ ölkələri arasında ilk dəfə Almaniya öz sərhədlərində gücləndirilmiş təhlükəsizlik yoxlamaları tətbiq edib və bu tədbirlər sərhəd-keçid məntəqələrində tıxaclara və növbələrə səbəb olub. Bənzər tədbirlər daha sonra Fransada tətbiq edilib. Fransanın hazırkı sərhəd nəzarəti oktyabrın 31-də başa çatıb, lakin yeni yoxlamalara bağlı qanun aktı noyabrın 1-dən qüvvəyə minəcək. Rəsmi Paris daxili sərhəd nəzarətini gələn ilin aprel ayına qədər uzadacağını açıqlayıb. Belə ki, Şengen sazişi çərçivəsində Fransanın Belçika, İspaniya, Lüksemburq, İsveçrə, Almaniya və İtaliya ilə sərhədlərində nəzarət tətbiq ediləcək.

İndi Fransaya və ya Almaniyaya avtomobillə gedənlər bilməlidirlər ki, hər iki sərhəddə yoxlamalarla üzləşə bilərlər. Avstriya da noyabrın 11-dək Sloveniya və Macarıstanla sərhəd nəzarətini gücləndirib. Bundan başqa, Danimarka, Norveç və İsveç noyabrın 11-dək bütün daxili sərhədlərdə yoxlamalar tətbiq edib. Sloveniyanın Xorvatiya və Macarıstanla sərhədində isə nəzarət tədbirləri bu il dekabrın 21-dək aparılacaq.

Almaniyanın daxili işlər naziri Nansi Fezerin qərarı ilə sentyabrın 16-dan etibarən Fransa, Lüksemburq, Belçika, Danimarka və Niderlandla sərhədlərdə də yoxlamaların aparılmasına başlanılıb. Polşa, Çexiya və İsveçrə ilə sərhədlərdə 2023-cü ilin oktyabrından, Avstriya ilə sərhəddə isə 2015-ci ildən yoxlamalar aparılır. Sərhədlərdəki yoxlamaların ümumi nəticələri ilə bağlı hesabatın noyabrın 1-də açıqlanması gözlənilir.



### Miqrantlar geri qaytarılır

Avropa ölkələri Şengen zonasından kənar sərhədlərinə isə nəzarəti, necə deyərlər, ikiqat gücləndiriblər. Xüsusilə də qapılar terror bəhanəsi ilə miqrantların üzünə daha sərt bağlanır. Bu məqsədlə Avropa İttifaqı yeni ortaq miqrasiya sistemini həyata keçirmək yolunda addımlar atmağa başlayıb. Ayrı-ayrı ölkələrin rəsmiləri faktiki olaraq Avropa dövlətlərinin qapılarını miqrantların üzünə bağlamağı hədəfləyən yeni qanunun qısa müddətdə və geniş miqyasda tətbiq etməsinin zəruriliyini vurğulayırlar. Qanun layihəsinə əsasən, təhlükəsizlik məsələləri və ictimai asayiş üçün risk yarandığı hallarda miqrantların könüllü qayıdışı üçün hər hansı müddət müəyyən olunmamalıdır. Bu qəbildən olan şəxslər dərhal deportasiya edilməlidir.

Qeyd edək ki, Avropada miqrasiya sahəsində islahatlarla bağlı qanunun uzun müzakirələrdən sonra may ayında qəbul olunub və onun həyata keçirilməsinə başlanılıb. Həmin islahatlara əsasən, nisbi sabitliyin hökm sürdüyü ölkələrdən gələn miqrantlara qarşı daha sərt tədbirlər görüləcək. Həmin şəxslərin Avropa İttifaqının üzvü olmayan üçüncü ölkələrə də göndərilməsi nəzərdə tutulur. Qanuna əsasən, təhlükəsizlik qurumlarının səlahiyyətləri müəyyən həcmdə genişləndiriləcək, miqrasiyanın nizamlanması və nəzarətdə saxlanılması məqsədilə nəzərdə tutulan tədbirlər gücləndiriləcək.

O cümlədən Almaniya federal hökuməti miqrasiya siyasətində daha sərt qaydaların tətbiqini planlaşdırır. Ölkənin daxili işlər naziri Nensi Fezer barələrində deportasiya qərarı çıxarılan şəxslərin təhlükəsizlik və digər məsələlərlə bağlı risklər yarandığı təqdirdə ölkədən daha sürətli şəkildə göndərilməsini nəzərdə tutan qanun layihəsini təqdim edib. Nazir bununla Avropa İttifaqının miqrasiya sahəsində islahatlarla bağlı qanunun və hökumətin miqrasiya paketinin sürətlə həyata keçiriləcəyinə ümid etdiyini bildirib.

Qeyd edək ki, hökumətdə təmsil olunan partiyaların parlament fraksiyaları avqustun sonunda Almaniyanın Solingen şəhərində üç nəfərin ölümü və bir neçə nəfərin xəsarət alması ilə nəticələnən silahlı hücumdan sonra təhlükəsizlik məsələlərindən məsul qurumların səlahiyyətlərinin genişləndirilməsini nəzərdə tutan təhlükəsizlik paketi barəsində razılığa gəlmişdilər. Nəzərdə tutulan qanun layihələri ölkədə ictimai asayişi gücləndirməyə və miqrasiya məsələlərində daha təsirli tədbirlərin görülməsinə xidmət edir.

Avropada milli səviyyədə artan miqrasiyanın qarşısını almağa yönələn qanun qəbul edən ilk ölkələrdən biri Fransa oldu. Bu ölkədə etirazlarla qarşılanan müvafiq qanun ötən il qəbul edilib. Verilən məlumatlara görə 2023-cü ildə qanunlarız pozan 4,5 mindən çox miqrant Fransadan çıxarılıb. Bu, bir il əvvəlki göstərici ilə müqayisədə 30 faiz çoxdur.

### Doqquz ayda Almaniyaya vizasız daxil olmaq istəyən 53 min nəfər saxlanılıb

Cari ilin ilk doqquz ayında etibarlı vizası olmadığı halda quru yolu ilə Almaniyaya daxil olmaq istəyən 53 min 410 nəfər saxlanılıb. Polis onların yarıdan çoxunu - 28 min 321 nəfəri sərhəddən geri qaytarıb. Bu barədə "Bild am Sonntag" qəzeti məlumat yayıb.

Qəzetin məlumatına görə, sərhəddən geri qaytarılanlar arasında ən çox Ukrayna (5935 nəfər), Suriya (4708) və Əfqanıstan (2396) vətəndaşları olublar. Almaniyaya ən çox icazəsiz giriş cəhdi isə İsveçrədən edilib. Belə cəhdlərin sayı 9113 olub. Polşadan 7862, Avstriyadan isə 5468 dəfə Almaniyaya qanunsuz yollarla girişə cəhd göstərilib.

Qeyd edək ki, federal polis daha əvvəl deportasiya edilənlər və ölkədə qalmaq üçün müraciətləri qəbul edilməyən şəxsləri geri qaytarır. Alman polisinin apardığı sərhəd yoxlamaları nəticəsində doqquz ayda 1195 insan qaçaqmalçısı yaxalanıb. Həmçinin barəsində həbs qərarı olan 7783 nəfər müəyyənləşdirilərək aidiyyəti üzrə təhvil verilib. Bundan başqa, Almaniyadan daha əvvəl deportasiya edilən və ölkəyə yenidən girmək istəyən 1482 nəfər də saxlanılıb.

### Kanada miqrant qəbulu planını 21 faiz azaldıb

Miqrantlara münasibətdə ən radikal çıxış edən ölkələrdən biri Kanadadır. Bu ölkə 2025-ci ilədək miqrant qəbulu planını 21 faiz azaldıb. Bu barədə ölkənin Baş naziri Castin Trudo məlumat verib. Hökumət başçısı bildirib ki, miqrant qəbulu Kanadanın gələcəyi üçün vacib olsa da, nəzarətdə saxlanmalıdır.

Miqrant qəbulu sürətləndiyi üçün Kanadanın əhalisi də 10 ildə 35 milyon nəfərdən 41 milyon nəfərə çatıb. Hökumət yaxın 3 ildə daimi yaşamaq üçün qəbul ediləcək miqrant kvotalarını ciddi şəkildə ixtisar edib. bir neçə ay əvvəl Miqrasiya Nazirliyi yaxın 3 ildə hər il üçün 500 min miqrantın daimi yaşayış üçün qəbul ediləcəyini açıqlamışdı. İndi elan edilən proqrama görə isə, 2025-ci ildə 395 min nəfər, 2026-cı ildə 380 min nəfər qəbul ediləcək. 2027-ci il üçün plan isə daha ciddi ixtisar edilərək 365 min nəfərə endirilib.

### Niderland sərhəd yoxlamalarını sərtləşdirir

Niderland hökuməti noyabrın sonundan etibarən sərhədlərdə daha ciddi yoxlamalara başlanılacağını, qanunsuz miqrantların Belçikaya və Almaniyaya geri göndəriləcəyini bəyan edib. Almaniyanın "Şpigel" nəşri xəbər verir ki, Baş nazir Dik Şum sağçı hökumətin əsas hədəfi olan miqrasiyaya qarşı tədbirlərin sərtləşdirilməsini nəzərdə tutan qanun layihəsini parlamentə təqdim edib. Populist siyasətçi Girt Vildersin radikal sağ partiyası da daxil olmaqla, hökumətdə təmsil edilən partiyaların parlamentdəki fraksiyaları bu barədə razılığa gəlib.

Nəzərdə tutulan tədbirlər arasında Suriyanın bəzi bölgələrinin təhlükəsiz ərazi elan olunması və həmin ərazilərdən olan miqrantların geri göndərilməsi yer alıb. Bundan başqa, bu ölkədə sığınacaq almaq hüququ olmayan şəxslərin daha tez geri göndərilməsi, Niderlanda yaşamaq icazəsi olmayan mühacirlərin konteynerdən ibarət sığınacaqlarda yerləşdirilmələri təklif edilir.

Sərt miqrasiya qanununa dair təkliflərin qəbulu üçün parlamentin hər iki palatası razılığa gəlməlidir. Lakin hökumətin bu planı ölkədə birmənalı qarşılanmayıb. Tanınmış hüquqşünaslar, bəzi rəsmilər və bir sıra bələdiyyələr bu tədbirlərin uğurlu olacağına şübhə ilə yanaşırlar. Miqrantların yerləşdirilməsinə cavabdeh bələdiyyələrin ittifaqı bu tədbirlərin xaos yaradacağını bildirib. Sərhədboyu şəhərlərin bələdiyyələri isə sərhədlərdəki yoxlamalara sərt etiraz edib. Bu barədə birgə açıqlamada yoxlamalar "narahatedici proses" və "saxta həll yolu" adlandırılıb. Birgə məlumatda Almaniyadakı sərhəd yoxlamalarının tıxaclara və qəzalara səbəb olduğu qısa gətirilib, nəqliyyat şirkətləri isə gecikmələrə görə xərclərin artmasından narahatdır.

Qeyd edək ki, hər il təxminən 40 min nəfər sığınacaq üçün bu ölkəyə üz tutur

***MÜBARİZ***

# Uzaq Şərqdə sükut pozulur

## Ukrayna müharibəsi bitər-bitməz...
## “Böyük müharibə” dənizə doğru yol alır

Bir müddət “sükuta” qərq olmuş Uzaq Şərqdə yenidən “həyacan təbili” çalınmaqdadır. Ötən ilin payızında San-Fransiskoda baş tutan görüşdən sonra öz “qınına” çəkilən ABŞ və Çin Tayvan problemi ilə bağlı yeni raunda start verirlər. Xəbər verildiyi kimi, “New York Times” qəzeti ABŞ Silahlı Qüvvələrinin Çinlə mümkün münaqişəyə hazırlaşması ehtimalından yazıb. Nəşr bildirib ki, amerikalı hərbçilər bu məqsədlə müxtəlif manevrlər, o cümlədən Ukrayna müharibəsində istifadə olunan taktikalar üzərində çalışır. Hətta qarşıdakı prezident seçkiləri də Vaşinqtonu bu “hədəfdən” yayındıra bilməz - nəşr qeyd edir ki, ABŞ-ın dövlət başçısı postuna namizədlər Donald Tramp və Kamala Harrisin Ukrayna və Yaxın Şərqdəki müharibələrlə bağlı mövqeyi fərqli olsa da, Çinə münasibətdə bu mövqelər uzlaşır - Birləşmiş Ştatlar noyabrda keçiriləcək seçkilərdə kimin qalib gəlməsindən asılı olmayaraq, Ağ ev Çinlə müharibəyə hazırlaşmağa davam edəcək. “ABŞ ordusu özünü və yüz minlərlə gənc kişi və qadını növbəti müharibəyə - bu dəfə Çinlə potensial münaqişəyə hazırlayır. Bu müharibə həm quruda, həm dənizdə və havada, həm də kosmosda aparıla bilər. Ordu da məhz həmin ssenarilər üzrə hazırlıq keçir. Amerikalı hərbçilər, eyni zamanda, Ukraynanın Rusiyaya qarşı döyüşlərini müşahidə edir və yeni manevrlər işləyir”, - deyə materialda bildirilir.

Nəşrin fikrincə, Çin və ABŞ kimi nüvə silahına malik böyük dövlətlər arasında münaqişə dəfələrlə təhlükəli olacaq. Həmin müharibədə amerikalı hərbçilər arasında itkilər Birləşmiş Ştatların iştirak etdiyi ən qanlı müharibələri belə geridə qoya bilər. Qəzet, həmçinin qeyd edir ki, ABŞ-ın bölgədəki hərbçilərinin təxminən 54 min nəfəri Yaponiyada, 25 mini Cənubi Koreyada, bir qədəri isə Filippində yerləşdirilib. “General-mayor Robert Smolls” gəmisi isə münaqişə baş verəcəyi təqdirdə Amerika texnikası və avadanlığının regiona çatdırılması üçün kritik əhəmiyyətə malikdir.

### 25 illik antiterror əməliyyatları arxa plana keçir...

Münaqişə ilə bağlı iddiaların bir illik sükutdan sonra yeni fazaya qədəm qoyması olduqca mühüm təhlükələrdən xəbər verir. Amerikalı siyasi tədqiqatçılar belə etiraf edirlər ki, Cənubi Çin dənizindəki mübahisəli adalar olan Tayvanla bağlı münaqişə silahlı mərhələyə qədəm qoymaq üzrədir. Hətta siyasi ekspertlər Birləşmiş Ştatların artıq bir neçə ildir ki, bu istiqamətdə təlimlər keçdiyini, təlimlərdə məqsəd kimi Çin də daxil olmaqla toqquşma ssenarilərinə hazırlığın reallaşdığını bildirirlər. Qeyd olunur ki, son illərdə bu cür təlimlərin sayı artıb: Amerika ordusu artıq Yaxın Şərqdəki 25 illik antiterror əməliyyatlarını ikinci plana keçirir, böyük dövlətlərlə toqquşmaya hazırlaşır. Onların Ukraynadakı müharibə təcrübəsinə əsaslandıqları vurğulanır və bildirilir ki, ABŞ əsgərlərinə xüsusilə Sakit okean regionunda Çinlə qarşıdurmanın yolları öyrədilir.

### 300 milyonluq PUA-nın ardından 567 milyon “yardım”...

Vaşinqtonun məsələyə baxışı daha radikaldır - siyasi analitiklər iddia edirlər ki, ABŞ toqquşma üçün hətta Tayvan ətrafında hərbi təxribat belə törətməyə hazırdır. Hazırda regiona fəal şəkildə silah yığılmasına baxmayaraq mümkün toqquşmanın vaxtı yalnız Ukrayna müharibəsi bitdikdən sonra məlum olacaq. Müharibənin iqtisadi maliyyə tərəfi də düşünülüb - iddia olunur ki, Ukraynada döyüşlər bitən kimi müharibəni stimullaşdıran maliyyə tranşının mühüm bir hissəsi Tayvana yönələcək. Bu ilin iyununda Birləşmiş Ştatlar Tayvana 300 milyon dollarlıq mümkün pilotsuz təyyarə satışını təsdiqləyib. Bunun qarşılığında isə Çinin Müdafiə Nazirliyi tərəfləri “hərbi sui-qəsdi” dayandırmağa çağırış edib. Amma deyəsən proses dayanmayacaq - sentyabrda ABŞ Tayvana 567 milyon dollarlıq hərbi yardım göstərib.

### Sakit okean sularında demarş...

Hətta ABŞ-ın Çinlə mümkün münaqişəyə hazırlıq məqsədi daşıyan təlimlər keçirdiyi də məlum olub. Oktyabrın ortalarında Amerika və Kanada hərbi gəmiləri Tayvan boğazından birlikdə üzüblər. Düzdür, bu dəniz demarşı ənənəvi xarakterə malik olsa da, (ABŞ dəniz qüvvələri mütəfiq gəmilərin müşayiəti ilə təxminən ayda bir dəfə boğazdan keçir) bu dəfəki “göstəri” tamam fərqli səciyyə daşıyıb. ABŞ Hərbi Dəniz Qüvvələrinin 7-ci Donanması bildirib ki, USS Higgins esminesi və Kanadanın HMCS Vancouver freqatı “beynəlxalq hüquqa uyğun olaraq naviqasiya və uçuş azadlığının tətbiq olunduğu sulardan”“ istifadə edib.

Ümumiyyətlə, bu ilin əvvəlindən etibarən münaqişəni körükləyəcək xarakterli bir neçə “məşq” edilib. Hətta ABŞ və Tayvan Sakit okeanın qərbində qeyri-rəsmi birgə dəniz təlimləri belə keçirib. Onlar freqatlar və dəstək gəmiləri də daxil olmaqla altıya yaxın gəmiyə baxış keçiriblər. Tərəflər əsasən hərəkətdə olarkən tədarük və yanacaq doldurma təcrübəsini yoxlayıb, həmçinin xarici sualtı qayıqların birgə axtarışını reallaşdırıblar. ABŞ-ın regiondakı hərbi gücü sayılan AUKUS hələlik bu təlimlərdən kənardadır. Amma “gərəkli” olacağı təqdirdə “Uzaq Şərq NATO-su”nun da prosesə qoşulacağı istisna edilmir.



ABŞ mənbələri isə əksinə, Çinin müharibəyə başlama ehtimalından danışır. Qeyd edək ki, hələ bu ilin yayında “Daily Mail”ə müsahibəsində ABŞ ordusunun istefada olan general-mayoru Con Ferrari bildirmişdi ki, Pekin təchizatı kəsməklə Vaşinqtonun bölgədəki ordusunu təchiz etmək qabiliyyətini sarsıda bilər.

### Nüvə müzakirələri baş tutmamışdı...

İlin əvvəlində Çin və ABŞ nümayəndələri son beş ildə ilk dəfə Şanxayda nüvə silahı məsələlərinə dair qeyri-rəsmi məsləhətləşmələr keçirmişdilər. Qeyd olunurdu ki, Amerika tərəfi Tayvanla münaqişə yaranacağı təqdirdə Çinin nüvə silahından istifadə etmə ehtimalından narahatdır. Sonradan isə “Semafor” nəşri Dövlət Departamentindəki mənbəyə istinadən Çinin ABŞ-la nüvə silahı ilə bağlı danışıqlardan imtina etdiyini bildirmişdi. Həmçinin qeyd olunmuşdu ki, ÇXR ABŞ Dövlət Departamentinin təklif etdiyi variantlara ciddi cavab verməyib.

***S.İSMAYILZADƏ***

# Makronun yeni antirekordu

## Narkoman nazirlər, narazı cəmiyyət...

**Böyük tarixə malik Fransanın ən uğursuz qədim dövrlərdə knyazlarının, müasir mərhələdə isə dövlət başçılarının siyahısı hazırlansa, heç şübhəsiz ki, “liderliyi” indiki prezident Emmanuel Makron qazanar. Məhz onun iki prezidentliyi dönəmində Fransa tarixi ənənələrindən, bəyan etdiyi dəyərlərdən geri çəkilib, Yelisey Sarayı ölkə daxilində və xaricində nüfuzunu itirib. Elə E.Makronun özünün də nüfuzu hər ötən gün aşağı düşür. O, keçirdiyi görüşlərdə ardıcıl olaraq sürprizlərlə üzləşir - gah ona şapalaq vururlar, gah da yumurta atəşinə tuturlar...**

### Dövlət başçısının reytinqi 17 faizə enib

Artıq Fransa prezidentinin reytinqi antirekord həddə enib. Bu barədə məlumat “Verian-Epoka” tədqiqat mərkəzinin “Figaro” nəşri üçün apardığı araşdırmanın nəticələrində əksini tapıb.

Araşdırmaya görə, Fransa liderinin populyarlıq səviyyəsi daha beş faiz azalaraq 17 faizə enib. Bu, Makronun prezident seçildiyi 2017-ci ildən bəri ən aşağı göstəricidir. Eyni zamanda, respondentlərin 78 faizi prezidentin fəaliyyətindən narazı olduqlarını bildirib.

Sağçı “Milli Birlik” partiyasının rəhbəri Jordan Bardella və onun parlamentdəki fraksiyasının lideri Marin Le Pen populyarlıq səviyyəsinə görə Makronu qabaqlayaraq reytinqdə müvafiq olaraq birinci və ikinci yerləri bölüşüb.

Fransa liderinin təmsil olunduğu partiyada fəalların sayı il ərzində təxminən dörd dəfə azalaraq 35 mindən 8,5 minə düşüb. Növbədənkənar parlament seçkilərindən sonrakı bir ay ərzində isə Makronun siyasəti ilə razılaşmayan dörd deputat prezident fraksiyasını tərk edib.

Qeyd edək ki, bir müddət öncə, Emmanuel Makron Fransa parlamentinə və Avropa Parlamentinə seçkilərdə partiyasının aşağı nəticələrinə baxmayaraq, prezident postunu tərk etmək niyyətində olmadığını və 2027-ci ilin mayında keçiriləcək seçkilərədək vəzifəsində qalacağını bildirib.



### Siyasi iflasa aparan yol

Təqdim olunan statistikaya sadəcə, cansız rəqəmlər kimi baxmaq doğru olmazdı. Bu rəqəmlər əslində, Fransanın bugünkü siyasi mənzərəsinin gerçək və ziddiyyətli reallıqlarını əks etdirir. Prezidentin reytinqinin 17 faizədək aşağı enməsi rəsmi Paris üçün siyasi iflas və yaxud makronizm üçün labüd uğursuzluq kimi dəyərləndirmək daha doğru olardı. Siyasi iflasa aparan yolda çoxsaylı məqamlar sadalamaq mümkündür ki, onların sırasında cari ildə baş tutan Avropa Parlamentinə və Milli Assambleyaya seçkilərin nəticələrini xüsusi vurğulamaq lazımdır. Fransada indiki siyasi iflas məhz son üç seçki cəhdindən sonra pik həddə çatıb.

Birinci cəhd Avropa Parlamentinə seçkilər oldu. Xatırladaq ki, Fransada iyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilərdə sağçı “Milli birlik” partiyası 31,36 faiz səs toplayaraq Makron koalisiyasını iki dəfədən çox üstələyib. Partiyasının Avropa seçkilərində iflasından sonra Makron parlamentin aşağı palatasını buraxaraq növbədənkənar seçkilər elan etdi. Bu qərar əslində Makronun revanş cəhdi idi. Ancaq Makronun ikinci seçki cəhdi də uğursuz oldu. Belə ki, Milli Assambleyaya seçkilərin birinci turunda sağçı “Milli birlik” partiyası və onunla müttəfiq qüvvələr 33,4 faiz səs toplayaraq qalib gəldi. Həmin seçkilərdə ikinci yeri 27,98 faizlə solçu “Yeni Xalq Cəbhəsi” koalisiyası qazandı. Makronun mərkəzçi adlandırılan koalisiyası isə 20,76 faiz səslə yalnız üçüncü yerlə kifayətlənməli oldu.

Makronun komandası dalbadal iki məğlubiyyətdən sonra üçüncü seçki cəhdinə saxtakarlığa, siyasi oyunbazlığa qol qoymaqla hazırlaşdı. Belə ki, Yelisey Sarayından gələn siyasi sifariş əsasında sağçıların ikinci turda mütləq qələbəsini əngəlləmək məqsədilə planlar quruldu - solçuların üstünlük təşkil etdikləri dairələrdə mərkəzçilər, mərkəzçilərin üstünlük təşkil etdikləri dairələrdə isə solçular namizədliklərini geri götürdülər və 200-dən çox namizəd ikinci tur seçkilərinə qatılmadı. Bu seçki oyunu prezident koalisiyasına müəyyən üstünlüklər yaratmaqla mərkəzçi düşərgədən birinci turla müqayisədə daha çox namizədin qalib gəlməsinə yol açsa da, Makronun parlamentdə mütləq səs çoxluğuna nail olmaq istəyini təmin etmədi. Mərkəzçilər ikinci turun nəticələrinə görə Marin Le Penin partiyasını üstələsələr də, yalnız ikinci yerlə kifayətlənməli oldular. Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, parlamentdə solçular 182, Makronun mərkəzçi alyansı 168, ifrat sağçıları təmsil edən Marin Le Penin “Milli birlik” partiyası və onun müttəfiqləri isə 143 yer qazanıb.

Analitiklər Makron üçün çətin hakimiyyət dövrünün başladığını, makronizm üçün sonun gəldiyini anons edirlər. Ümumiyyətlə, parlamentin yeni formalaşan tərkibi ilə onun ölkəni normal qaydada idarə edə biləcəyi mümkünsüz görünür. Qeyd edək ki, Fransa Milli Assambleyası 577 deputatdan təşkil olunur. Parlamentdə çoxluğu əldə etmək istəyən partiyaya 289 mandat lazımdır. Bundan əvvəlki seçkilərdə Makronun koalisiyasını Milli Assambleyada cəmi 250 deputat təmsil edirdi. Buna görə də mərkəzçi koalisiya parlament çoxluğunu qazanmaqdan ötrü digər partiyaların təmsilçilərinin səsini almaq, bunun üçün hətta hansısa sövdələşmələrə getmək məcburiyyətində qalırdı. Mərkəzçilər üçün indiki say tərkibi ilə bunu etmək daha çətin olacaq.



### Hökumətin həlli çətin görünən problemləri

Konstitusiyaya görə, seçkilərdən sonra hökumət parlamentin yeni tərkibinə uyğun olaraq formalaşdırılmalı idi. Lakin Makron konstitusion tələblərə və demokratik prinsiplərə məhəl qoymayaraq yeni hökumətin formalaşmasını xeyli yubatdı və sentyabr ayında sabiq Avropa komissarı və Fransanın sabiq xarici işlər naziri Mişel Barnyeni yeni Baş nazir təyin etdi. Çox doğru olaraq Makronun bu addımı onun seçkilərin nəticələrini tanımaması anlamında qəbul edilir. 2024-cü il qanunvericilik seçkilərindən sonra solçuların nisbi çoxluq əldə etmələri fonunda heç kim respublikaçının Baş nazir təyin ediləcəyini gözləmirdi. Bununla belə absurd reallıq ortadadır. Makron şəxsi iradəsini ölkə qanunvericiliyinin fövqündə qoyaraq Mişel Barnyeni Baş nazir postuna gətirib. Daha da pisi odur ki, təyin olunan yeni nazirlərin demək olar, hamısı respublikaçılar və ya “Renessans” (Renaissance) yəni Emmanuel Makronun partiyasındandır.

Lakin Mişel Barnyenin qurduğu yeni hökumət ona miras qalan çətinlikləri aradan qaldırmaq iqtidarında deyil. Bu gün hökumət həlli çətin görünən çoxsaylı problemlərlə üz-üzədir. Etirazlarla qarşılanan təyinatdan sonra prezident və onun komandasının təmsilçiləri populyarlıqlarını və etimadlarını sürətlə itirməkdədirlər. Xüsusilə o vaxtdan bəri, 3000 milyard avrodan çox dövlət borcunu ödəmək üçün yollar axtarılsa da, hansısa bir ümid yeri yoxdur. Barnye hökuməti hətta vergiləri artırmağı planlaşdırır.

İş o yerə çatıb ki, Fransanın mədəniyyət naziri Raşida Dati açılışdan sonra Paris Notr-Dam kilsəsini ziyarət etmək üçün turistlərdən 5 avro alınmasını təklif edib. Nazir bu barədə “Le Figaro” qəzetinə müsahibəsində deyib. Onun sözlərinə görə, simvolik ödənişdən əldə olunan vəsait ölkənin dini irsini qorumağa yönəldilə bilər.

Xatırladaq ki, 2019-cu ilin aprel ayında Notr-Dam kilsəsində güclü yanğın olub. Kilsənin beş il davam edən genişmiqyaslı yenidənqurmadan sonra cari il dekabrın 8-də açılacağı gözlənilir.

Nazir, həmçinin bildirib ki, fransızlar və Avropa İttifaqından kənar ölkələrdən gələn turistlər üçün Fransa muzeylərinə və abidələrinə giriş qiymətlərinin fərqləndirilməsi zəruridir. Yəni onlar daha çox pul ödəməlidirlər.

Qeyd edək ki, Notr-Dam kilsəsi Parisin ən görməli yerlərindən biridir. 2019-cu ildəki yanğından əvvəl onu ildə 14 milyona yaxın turist ziyarət edirdi.

### Hakimiyyət daxilində narkotik qalmaqalı böyüyür

Belə çətin bir vəziyyətdə komanda daxilində qruplaşmalar aktivləşiblər. Ayrı-ayrı qruplar Baş naziri daha da çıxılmaz duruma salmaqdan ötrü yeni qalmaqala rəvac veriblər. İndi Barnye hökuməti daha böyük problemlə üzləşib. Belə ki, bəzi məmurlar M.Barnyenin nazirlərini narkotikdən istifadədə ittiham edirlər. Hətta mediada bununla bağlı ciddi ittihamlar səslənmişdir. Sosial şəbəkələrdə dolaşan xəbərlər vətəndaşların yeni hökumətə qarşı narazılığını daha da artırır.

Narkotik məsələsini ekoloq senator Melani Vogel qaldırıb. “Nazirlərin, deputatların, senatorların, bələdiyyə başçılarının qan testini aparacağıq, Brüno Rötayo (daxili işlər naziri) narkotik istehlakının onun hökumətində də olduğunu aşkar edəcək”, - deyə M.Vogel BFM televiziyasında deyib. Verilişin aparıcısı bu ittihamların çox ciddi olduğunu deyib, ancaq bu mövzuda təkcə M.Vogel deyil, digər deputatlar da belə ittihamlar səsləndiriblər. “Narkotiklər hər yerdə var, redaksiyanızda, RMC-də, Milli Assambleyada”, - deyə başqa bir deputat RMC radiosunda deyib.

Deputatların, senatorların narkotik istehlakı məsələsi deputat Endi Kerbranın narkotik alarkən yaxalanmasından sonra gündəmin əsas mövzularından birinə çevrilib. Bəzi deputatlar hər iki palatada (Milli Assambleya və Senat) başqa asılılıq problemləri olduğunu da deyirlər.

Deputat Endi Berbra isə narkotik alarkən yaxalandığını etiraf edib. O, müalicəyə başlayacağını bildirib. Deputat X platformasında izah edib ki, narkotik maddə saxlamağa görə yoxlanılıb. Bu məlumatı ictimailəşdirən “Valeurs actuelles”ə görə, onun əlində Fransada istehlakı geniş yayılmış 1,35 qram çəkidə sintetik narkotik olub.

Endi Berbra şəxsi problemləri və psixoloji zəifliklərini həll etmək üçün sintetik narkotiklərdən - “3-MMC”-dən istifadə etdiyini bildirib. Əlavə edib ki, narkotikdən asılılığa görə müalicə alacaq.

Sosial şəbəkələrdə eyni partiyadan olan həmkarları E.Berbranı müdafiə edərək onun xəstə olduğunu bildiriblər və ona tez sağalaraq işinə qayıtmasını arzulayıblar. Digər müxalif partiyalardan olan deputatlar isə Berbranın narkotik istifadə etməsini onun seçicilərinə - nantlılara qarşı təhqir olduğunu bildiriblər.

Qeyd edək ki, bundan əvvəl də fransız senator qadın həmkarının evinə dəvət edərək ona xəbəri olmadan narkotik vermişdi.

Kokainə alternativ kimi hesab olunan “3-MMC” Fransada getdikcə daha çox istehlak edilən və ucuz narkotikdir.

***Mübariz FEYİZLİ***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Ət yeməyənlərin Günü...

Qidalanma təbii tələbatlarımızdan biridir. Çoxluq təşkil etməsə də, bəzi insanlar heyvanlardan əldə edilmiş bütün qida məhsullarından imtina edirlər. Vegeterianlıq qədim zamanlardan Roma, Hindistan və Yunanıstanda ciddi riayət olunan bir qidalanma sistemidir.

İlk dəfə Vegeterian sözü 1842-ci ildən istifadə edilməyə başlanıb. Araşdırmalara görə, günümüzdə Hindistandakı vegeterianların sayı bütün dünyadakı vegeterianların sayından daha çoxdur. Veqan həyat tərzini seçənlərin sayı artdıqca mağazalarda veqanlara özəl hazırlanmış qida məhsullarının çeşidi, veqan yeməklərinə diqqət göstərən otel və restoranların sayı da artır.

1994-cü il noyabrın 1-də İngiltərədə keçirilən Veqan Cəmiyyətinin 50-ci ildönümündə vegetarian heyvan hüquqları müdafiəçisi Louise Wallis bu tarixi Beynəlxalq Veqan Günü olaraq elan edib. Veqan Cəmiyyətinin prezidenti kimi onun məqsədi təkcə Veqan Assosiasiyasının davamlı mövcudluğunu vurğulamaq deyil, həm də “veqan” sözünün ingilis dilinə keçməsinə diqqət çəkmək idi.

Əslində, veqanizm ideyasının ən az 2000 il əvvəl və vegetarianizm ideyasının (ət yeməmək) ondan 500 il əvvəl mövcud olduğu təxmin edilir. 1806-cı ilə qədər isə veqan həyat tərzi artıq formalaşmağa başladı. Əvvəllər veqanlar süd məhsullarından imtina etdi, daha sonra bu sıraya yumurtalar da daxil edildi. 1951-ci ilə qədər veqanlar artıq bütün heyvan mənşəli məhsullardan imtina etdi. Veqanların birləşərək İngiltərə Veqan Cəmiyyətini yaratması 100 ildən uzun çəkdi.

Veqan Cəmiyyəti 1944-ci il noyabrın 1-də Donald Uotson tərəfindən yaradılıb. O, ingilis mənşəli “vegetarian” sözünün ilk 3 və son 2 hərfini götürərək “veqan” sözünü yaradıb. Onun bu cəmiyyəti məhz 1 noyabr tarixində yaratmasına səbəb 31 oktyabr keçirilən “Halloween” bayramı ilə 2 noyabrda qeyd olunan Meksika Ölülər Günü arasına düşməsi idi.

**Vegetarianlığın sərt forması olan insanlar...**

-tərkibində heyvan mənşəli komponentləri istisna edən yalnız bitki mənşəli məhsullarla qidalanırlar;

-həm ətdən, həm də süd, bal, pendir, yumurta və heyvanlardan alınmış hər cür qida növündən imtina edirlər;

-dəri, xəz, yun və ipək paltar əsla geyinmirlər;

-heyvanlar üzərində sınaqdan keçirilmiş məhsullardan istifadə etmirlər və s.

Veqanlar heyvanlara əziyyət edilməsinin, öldürülməsinin və onlara qəddar rəftar edilməsinin qarşısını almağa çalışırlar. Onlar bu gün dünyanın müxtəlif ölkələrində Beynəlxalq Veqan Gününü xüsusi şəkildə qeyd edərək veqan həyat tərzinin yayılmasına, bu haqda insanların məlumatlılığının artmasına önəm verirlər. Onlar heyvanlara əziyyətin qarşısının alınmasında son dərəcə haqlıdırlar. Bəs bütün heyvan mənşəli qidalardan imtina etmək insan sağlamlığına necə təsir edər? Bir çox tədqiqatçılar bu həyat tərzinin sağlamlıq üçün bəzi təhlükələr yaratdığını qeyd edirlər. “Heyvanlara əziyyət olunmasın, amma insanlar da bu həyat tərzini seçməklə özlərinə əziyyət etməsin”-deyə düşünürlər.

*Yeganə BAYRAMOVA*

# İqtisadiyyatımızın əsas sahəsi...

## Kənd Təsərrüfatı İşçilərinin bayramıdır



Əkib-becərməyi, heyvanları əhliləşdirməyi hələ öyrənməmiş olan əcdadlarımız yabanı bitkilər toplayaraq, vəhşi heyvanları ovlayaraq qidalanır və həyatda qalmağa çalışırdılar. İndiki həyatımızda isə kənd təsərrüfatı sayəsində bu, xeyli asanlaşıb. Əkinçilik, bağçılıq, arıçılıq, maldarlıq, üzümçülük və s. bir çox qida sahələrini əhatə edən kənd təsərrüfatı sahəsi qida tədarükçüsü kimi insan varlığının təməl daşını təşkil edir. Bu sahənin inkişafı əsrlər boyu sivilizasiyaların inkişafına böyük töhfə verib. Kənd təsərrüfatı bitki və heyvan mənşəli məhsulların istehsalını, onların keyfiyyətinin və səmərəliliyinin yoxlanılmasını, satışa çıxarılmasını özündə ehtiva edir.

İqtisadiyyatda mühüm rol oynayan kənd təsərrüfatı inkişaf etməkdə olan ölkələr üçün iqtisadi sistemin əsası hesab olunur. İqtisadi cəhətdən strateji əhəmiyyətli və səmərəli olan kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi iqtisadiyyatın davamlı inkişafına zəmin yaradır. Ölkəmizdə bu sahənin inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-nin Azərbaycanda Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunması və bu günə həsr olunmuş xüsusi tədbirlərin keçirilməsi bunun əsas göstəricilərindəndir.

Dövlətimiz hər zaman kənd təsərrüfatı sahəsinin inkişafına və bu sahədə çalışan işçilərə xüsusi qayğı göstərir. Bu istiqamətdə atılan addımlardan biri də 2007-ci ildə Prezident İlham Əliyev tərəfindən kənd təsərrüfatına dövlət dəstəyi proqramına start verilməsidir. Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün səmərəli fəaliyyət göstərərək ciddi nəticələr əldə edir. Nazirliyin təşəbbüsləri dövlət tərəfindən hər zaman dəstəklənir.

Son illərdə kənd təsərrüfatı sahəsində dinamik inkişaf qeydə alınır. Kənd təsərrüfatının ümumi məhsulunun dəyəri hər il daha da artır. Məhsulların ixracında müsbət nəticələr əldə olunur. İşğaldan azad edilmiş torpaqlarımızda kənd təsərrüfatının yenidən qurulması üçün “Ağıllı kənd” layihələri icra olunması da ölkəmizin hər keçən gün daha inkişaf edərək irəli getdiyinin sübutudur.

Azərbaycanda iş yerlərinin çoxu kənd təsərrüfatındadır. Bu sahənin həm iqtisadiyyatın inkişafında, həm də qida tədarükçüsü olaraq insanların həyatındakı rolu çox böyükdür. Məhz buna görə də kənd təsərrüfatı sahəsində çalışan işçilərin əməyi əvəzolunmazdır. “Yeni Azərbaycan” olaraq kənd təşərrüfatı işçilərini peşə bayramı münasibətilə təbrik edirik!

*Yeganə BAYRAMOVA*



# “Nar” mobil rabitə təlimlərinə davam edir!

Mobil rabitə bazarında sərfəli təklifləri və təhsilə verdiyi önəmlə tanınan “Nar”, ölkədə rəqəmsal biliklərin inkişafını dəstəkləyən layihələrə davam edir. “Nar”ın korporativ sosial məsuliyyət strategiyasına uyğun olaraq, telekommunikasiya ixtisasları üzrə təhsil alan tələbələrə davamlı olaraq “Mobil rabitənin əsasları” təlimi keçilir.

“Nar” texniki heyətinin hazırladığı və keçdiyi bu təlim mobil rabitə sahəsinin yerli peşəkarlarını hazırlamağı və tələbələrin məzun olduqdan sonra uğurlu karyera qurmasını hədəfləyir. Azərbaycan Texniki Universitetində (AzTU) keçilən budəfəki təlimin mövzuları mobil texnologiyanın təkamülü, mobil rabitə şəbəkəsinin quruluşu, əşyaların interneti (IoT), 5-ci nəsil texnologiya, mobil rabitənin strukturu, naqilsiz transmissiya şəbəkəsi, mobil rabitədə tezliklər kimi mövzuları əhatə edib.

Qeyd edək ki, “Nar” Azərbaycan Texniki Universiteti və Azərbaycan Texnologiya Universiteti ilə əməkdaşlıq edərək telekommunikasiya ixtisası üzrə təhsil alan tələbələrin həm nəzəri, həm də praktiki bilik əldə etmələri üçün mühüm imkanlar yaradır. Bu əməkdaşlıq çərçivəsində hər iki universitetdə yaradılan “Nar” mobil rabitə laboratoriyaları tələbələrə mobil texnologiyalarla işləmək və real şəbəkədə təcrübə qazanmaq fürsəti verir.

“Nar”ın həyata keçirdiyi təhsilyönümlü sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## İdman

### Avropa Kubokunun qalibi olmuş “Azərreyl”in voleybolçuları ilə görüş keçirilib



Çimərlik voleybolu üzrə Avropa Kubokunun qalibi olmuş “Azərreyl”in kişi və qadın komandaları ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, çempion komandaları təbrik edən Azərbaycan Voleybol Federasiyasının (AVF) prezidenti Şahin Bağırov bu qələbənin tarixi uğur olduğunu söyləyib.

O qeyd edib ki, ölkədə çimərlik voleybolunu daha da inkişaf etdirmək üçün federasiya tərəfindən bir sıra işlər və layihələrin həyata keçirilməsi nəzərdə tutulur. AVF rəhbəri çimərlik voleybolçularının qış aylarında da məşqlərini səmərəli keçirmələri üçün lazımi şərait yaradılacağını vurğulayıb. Ş.Bağırov bildirib ki, peşəkar şəkildə çimərlik voleybolu ilə məşğul olmaq istəyən gənc və perspektivli idmançılar təlim-məşqlərə cəlb ediləcəklər.

Daha sonra Ş.Bağırova çempionların imzası olan klubun simvolik forması və top təqdim edilib.

### Azərbaycanın Paralimpiya çempionu ustad dərsi keçib



Milli Paralimpiya Komitəsinin (MPK) təşkilatçılığı, Azərbaycan Taekvondo Federasiyasının dəstəyi ilə Paralimpiya, dünya və Avropa çempionu İmaməddin Xəlilov ilə ustad dərsi keçirilib.

MPK-dan AZƏRTAC-a verilən məlumata görə, ustad dərsində 30-a yaxın uşaq və yeniyetmə parataekvondoçu iştirak edib.

Milli komandanın parataekvondoçularının və məşqçi heyətinin də qatıldığı tədbir zamanı bu idman növünün fəlsəfəsi, fundamental texnikalar, fəndlərin yerinə yetirilməsi də daxil olmaqla müxtəlif mövzular əhatə olunub.

Bu cür layihələrin həyata keçirilməsində əsas məqsəd gənc nəslin fiziki və mənəvi sağlamlığına töhfə vermək, idmanla məşğul olan uşaqların, gənclərin sayını artırmaq və parataekvondo idman növünü təbliğ etməkdir.

### Yunan-Roma güləşçilərimiz Gimnaziadanı 10 medalla başa vurublar



Azərbaycanın yunan-Roma güləşçiləri Bəhreynin paytaxtı Manamada keçirilən Gimnaziadanı 10 medalla başa vurublar.

“Report” xəbər verir ki, yarışa böyük məşqçi Taleh İsrafilov və məşqçi Rasim Ağayevin rəhbərliyi altında yollanan komandamızın 13 üzvündən 10-u fəxri kürsüyə qalxıb.

Mikayıl İsmayılov (110 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub. Hüseyn Əliyev (45 kq), Şahid Nəbiyev (48 kq), Nihat Bəhmənov (51 kq), Əmrah Əmrahov (55 kq), Akif Nəcəfli (65 kq) və Yusif Əhmədli (71 kq) gümüş medal qazanıb. Turan Daşdəmirov (55 kq), Nihat Tağıyev (60 kq) və Emil Abasov (80 kq) isə bürünc medal əldə edib.

Millimiz 185 xalla komanda hesabında ikinci yeri tutub.

Qeyd edək ki, Gimnaziadada daha öncə sərbəst güləşçilər 11 (1 qızıl, 2 gümüş, 8 bürünc), qızlar isə 3 (1 qızıl, 1 gümüş, 1 bürünc) medal qazanıb.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4808
Sifariş: 2508
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli